RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 154 (9321) 25 İYUL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Müzəffər Ali Baş Komandanın modern quruculuğu

### İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda yüksəlişin ən mükəmməl modelini yaradır

Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura qayıdışı milli çağırışımız kimi xarakterizə edib. Buna görədir ki, Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilən ərazilərdə quruculuq və bərpa işlərinə start verilib. Qayıdışa sürətli hazırlıq görülən bu yerlərdə müasir infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülür.

Prezident İlham Əliyev tərəfindən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməli qoyulub. Vətən müharibəsindən sonra dövlət başçısı işğaldan azad edilən ərazilərə 100-dən çox səfər gerçəkləşdirib və hər biri mühüm tarixi açılış, təməlqoyma ilə bol olan bu səfərlər sayəsində həmin ərazilərdə həyata keçirilən işlərlə daha yaxından və ətraflı tanış olmuşuq.

Elə iyulun 20-21-də də dövlət başçısı yolunu yenidən Qarabağ və Şərqi Zəngəzurdan saldı. Ayın 20-də tarixi yurdumuz Xocalının işğaldan azad edilən Çanaqçı və Sığnaq kəndlərində olan qalib lider İlham Əliyev elə bu cənnətməkan kəndlərdən bir daha düşmənlərimizə "Qarabağ Azərbaycandır!" mesajını verdi, əzəli sahiblərinin bu torpaqlara əbədi qayıtdıqlarını çatdırdı.

→ 12

## Azərbaycan və Çin arasında yekdil siyasət var, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır




### Azərbaycan Prezidenti İlham Əliyev Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verib. Dövlət başçısının müsahibəsi iyulun 22-də "China Global Television Network" televiziya kanalında yayımlanıb. AZƏRTAC müsahibənin geniş variantını təqdim edir.**

→ 2-4

## Prezident İlham Əliyev Şavkat Mirziyoyevi təbrik edib

**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona Özbəkistanın inkişafı naminə fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulayıb. Özbəkistan Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan-Özbəkistan dostluq və qardaşlıq münasibətlərinin sürətli inkişafından məmnunluq ifadə edilib, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub.



Dövlət başçıları əlaqələrimizin bundan sonra da hərtərəfli inkişafı ilə bağlı fikir mübadiləsi aparıb, yaxın gələcəkdə Şavkat Mirzizoyevin Azərbaycana dövlət səfərinin gözlənildiyi vurğulanaraq, bu səfərin əlaqələrimizin inkişafında növbəti mərhələ olacağına əminlik ifadə edilib.

*Prezidentin Mətbuat Xidməti*

## Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı - İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Xalqlarımızı ənənəvi dostluq münasibətləri birləşdirir. Bu gün bu xoş ənənələr üzərində qurulan dövlətlərarası əlaqələrimiz müvəffəqiyyətlə inkişaf etməkdədir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Misir arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Misir xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 iyul 2023-cü il*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur*).
2. "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur **).
3. "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur **).
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

***** "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə" qəzetin bugünkü nömrəsində dərc olunur (səhifə 14).*

*** "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" və "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" qəzetin 26 iyul 2023-cü il tarixli sayında dərc ediləcək.*

### I Şuşa Qlobal Media Forumu

## Şuşadan dünyaya yayılan yüksək səda

İlham Əliyev Azərbaycanın gücünü, mövqeyini və hədəflərini bəyan etdi

→ 13

## Prezident İlham Əliyevin forumdakı fikirləri beynəlxalq mətbuatın əsas gündəm mövzusuna çevrilib

→ 11

## Bəzi sosial media subyektləri barəsində inzibati icraat başlanılıb

İnternet informasiya ehtiyatlarında qanunvericiliklə yayılması qadağan edilmiş məlumatların yerləşdirilməsinin qarşısının alınması və informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir.

Baş Prokurorluqdan AZƏRTAC-a bildirilib ki, "Hürriyyət" qəzetinin baş redaktoru Məmmədov Vüqar Tofiq oğlu və Məmmədov Elnur Teymur oğlu tərəfindən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozularaq internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi faktı üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Aşkar edilmiş hüquqpozmalarla bağlı hər iki şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci maddəsi ilə (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması) inzibati xəta haqqında iş üzrə icraat başlanaraq toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

Məhkəmə qərarı ilə Vüqar Məmmədov və Elnur Məmmədov 1 ay müddətinə inzibati qaydada həbs ediliblər.

## V.Ə.Quliyevin "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyev "İgidliyə görə" medalı ilə təltif edilsin (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

# Azərbaycan və Çin arasında yekdil siyasət var, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır

## Azərbaycan Prezidenti İlham Əliyev Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verib

**Müxbir: Müsahibəyə görə minnətdarıq. Biz yalnız üç gündür Bakıdayıq. Ölkənizin və şəhərin nə dərəcədə müasir olması bizdə dərin təəssürat yaratdı və getdiyimiz hər yerdə bir Azərbaycan elementi var.**

**Prezident İlham ƏLİYEV:** Düzdür. İlk öncə, Azərbaycana xoş gəlmisiniz. Gəldiyinizə və ölkəmizə diqqət yetirdiyinizə görə sağ olun. Çox şadam ki, siz Azərbaycanda bir neçə gün olacaqsınız və bu, ölkəmizi və xalqımızı daha yaxından tanımaq üçün yaxşı fürsət olacaqdır. Tamamilə haqlısınız ki, biz şəhərlərimizin əsl orijinallığını, nailiyyətlərini qoruyub saxlayırıq. Eyni zamanda biz ölkəmizi müasirləşdiririk. Bakıda gördükləriniz müasirliklə ənənələrin qovuşmasıdır və hesab edirəm ki, onlar bir-birinə qarşı çıxmır, bir-birinə zidd deyil. Bu, məqsədyönlü şəkildə edilib, çünki Bakı kimi tarixi şəhərdə ilk məqsəd tariximizi və memarlıq abidələrini qorumaqdır. Eyni zamanda şəhərə inkişaf etmək imkanı verilməlidir. Bakıda hər iki məqamı duya bilərsiniz. Zənnimcə, bu, həqiqətən, mühüm nailiyyətdir və bunu qeyd etdiyinizə görə sağ olun.

**Müxbir: Sizin qədər olmasa da biz də bir sıra şəhərlərdə olmuşuq. Ancaq Bakı mənim səfər etdiyim heç bir şəhərə bənzəmir.**

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Müxbir: Cənab Prezident, müsahibəmizin əvvəlində bildirmək istəyirəm ki, bu il mərhum atanız Ümummilli Lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. O, təkcə Ulu Öndər və müasir Azərbaycanın qurucusu deyil, Çin-Azərbaycan dostluğunun təməlini qoyan şəxs olub. Ona görə bir daha onun xatirəsinə ehtiramımızı ifadə edirik.**

**Prezident İlham ƏLİYEV:** Çox təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyini quran, ölkəni inkişaf yoluna yönləndirən, vətəndaş müharibəsinin qarşısını alan, 1990-cı illərin əvvəlində hökm sürən qarışıqlıq və xaos vəziyyətinə son qoyan şəxs idi. O, həmçinin bu gün də rəhbər tutduğumuz daxili və xarici siyasət prioritetlərini müəyyən etdi. Əlbəttə, 30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb - dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı. Buraya olduqca fəal regional siyasətin həyata keçirilməsini də əlavə etmək olar. Əlbəttə, müstəqilliyimizin ilk günlərindən əsas məqsədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Buna da iki ildən bir az artıq əvvəl nail olunub.

Tamamilə haqlısınız ki, o, Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb. Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub.

**Müxbir: Bir çox çinli izləyici diqqət yetirib ki, atanız Çinə rəsmi səfərləri zamanı rəsmi proqramdan əlavə o, sadə çinli ailələrlə görüşüb və onların həyatı ilə maraqlanıb. Çinli məktəblilərlə görüşüb və bölgələrə səfərlər edib. Buraya biz fotoları gətirmişik və Sizdən xahiş edək ki, bunlarla bağlı əlavə məlumat verəsiniz. Məsələn, bu şəkil 1990-cı illərdə çəkilib. Burada o və çinli ailədir.**



**Prezident İlham ƏLİYEV:** Bəli, düzdür.

**Müxbir: Gözəl şəkildir.**

**Prezident İlham ƏLİYEV:** Bəli. Bu, bir daha onu nümayiş etdirir ki, sizin dediyiniz kimi, o, yalnız rəsmi təmaslarla kifayətlənmirdi və xalqlar arasında münasibətlər qurmağa çalışırdı. Bu foto da məhz onu nümayiş etdirir.

**Müxbir: Bu fotoda isə o, məktəblilərlə söhbət edir.**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Müxbir: Onlara hədiyyə verir. Xoşunuz gəlirmi?**

**Prezident İlham ƏLİYEV:** Bəli, bu, sizin dediklərinizin aydın təzahürüdür. Sağ olun.

**Müxbir: Burada isə Çin səddinə, "Qadağan olunmuş şəhər"ə və digər tarixi yerlərə səfərlər var.**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Müxbir: Atanız Çini və oraya səfərlərini Sizə necə təsvir edirdi? Çin onun üçün nə demək idi və Siz nəsildən-nəslə ötürülmüş bu dostluğun davamını necə görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** Əslində, Çin onun üçün tanımadığı ölkə deyildi. O, müxtəlif dövrlərdə Çinin inkişafı ilə bağlı yaxşı məlumatlı idi. Vaxtilə o, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb və Çin nümayəndələri ilə bir çox görüşlər keçirib. O, ölkənizin dinamikası və inkişafından yaxşı xəbərdar idi. Müstəqil Azərbaycanın Prezidenti seçiləndən sonra isə onun əsas xarici siyasət prioritetlərindən biri Çinlə ikitərəfli münasibətlər qurmaq idi. Xatırlayıram ki, o, Çinə rəsmi səfərdən böyük təəssüratla qayıtmışdı. Heydər Əliyev Çinin artmaqda olan gücünü, həmrəy cəmiyyətini və aydın məqsədlərə malik ölkəni gördü - bunlar təxminən 30 il öncə baş vermişdi.

Sıravi insanlarla görüşlər isə onun təbiəti ilə bağlı idi. O, burada - Azərbaycanda da hər zaman çalışırdı ki, cəmiyyətin nəbzini tutsun, insanların necə yaşadığını, nə fikirləşdiyini, hansı problemlərlə üzləşdiyini və hansı arzulara malik olduğunu bilsin. Təbii ki, o, Çində həmçinin sadə insanların həyat tərzi ilə maraqlanırdı.

Beləliklə, bizim ikitərəfli münasibətlərimizin təməli həmin tarixi səfər nəticəsində qoyuldu və həmin vaxtdan onların dinamik inkişafı üçün mühüm potensial vardır.

**Müxbir: Biz Bakının müxtəlif yerlərində atanızın heykəllərini gördük və onun adını daşıyan prospektlər, memoriallar var. Zənnimcə, burada Sizin atanıza olan ehtiram və məhəbbətin daha dərin mənası var. Şəxsən Sizin üçün atanız kim olub?**

**Prezident İlham ƏLİYEV:** Xüsusilə Azərbaycan cəmiyyətində hər bir övlad üçün onun valideynləri çox əzizdir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bu ənənələr dərin köklərə malikdir. Vacib haldır ki, 30 il müstəqil ölkə olaraq qlobal mühitdə yaşamağımıza baxmayaraq, bu ailə dəyərlərimizi və böyüklərə hörməti qoruya bilmişik. Bu, bizim cəmiyyətimizin təməlidir. Hər bir azərbaycanlı kimi, mənim üçün də atam əziz insan olub. O insan ki, ona bənzəməyə çalışırsan, xüsusilə ata ilə fəxr edə biləndə. Bu belə olur. Mənim üçün bu, böyük xoşbəxtlikdir, çünki mən həm şəxsən onun üçün, həm də Azərbaycan xalqı üçün ən çətin vaxtlarda atamın yanında olmuşam.

Xüsusilə 1990-cı ilin 20 yanvarında sovet ordusu Azərbaycana hücum edərkən, o, həmin qanlı hücuma qarşı etiraz səsini ucaldan və bu hadisəni pisləyən, bəlkə də, yeganə şəxs idi. O, yaxşı dərk edirdi ki, bu, ona baha başa gələ bilər. Biz Sovet İttifaqında yaşayırdıq, ölkənin dağılmasına hələ iki il qalırdı və 1990-cı ilin yanvarında bunu hələ heç kəs təsəvvür edə bilməzdi. Yüzdən artıq günahsız insanın, mülki vətəndaşın həyatına son qoyan bu zorakı və qanlı hücumu pisləmək böyük cəsarət və xalqa sevgi tələb edirdi.

Bununla yanaşı, o, sovet hökumətinin anti-Azərbaycan mövqeyi səbəbindən kommunist partiyasını tərk etdi. Bunun özü də çox cəsarətli addım idi, çünki sovet hökuməti və sistemi hələ də çox güclü və qəddar idi. O, bunları nəzərə almalı idi, lakin onun üçün Azərbaycan xalqının milli maraqları, milli qüruru və ədalət şəxsi amillərdən üstün idi. Bu, onun üçün və bizim üçün mürəkkəb dövr idi, lakin ailəmiz bir yerdə idi.

Eyni vəziyyət Azərbaycanda vətəndaş qarşıdurması zamanı qarışıqlıq, çaşqınlıq və xaosun hökm sürdüyü dövrdə idi. Azərbaycan xalqı vəziyyətdən xilas yolunu yalnız Heydər Əliyevdə gördü və ən çətin vaxtda onu dəvət etdi. O, gənc deyildi, onun artıq 70 yaşı var idi. Onun 1993-cü ildə Azərbaycanda rəhbərliyi öz üzərinə götürməsi, həqiqətən, çox cəsur addım idi. Bu, onun Azərbaycan xalqına məhəbbətini və sadiqliyini bir daha nümayiş etdirdi. Azərbaycanlıların onu müasir Azərbaycanın qurucusu hesab etməsi tamamilə doğrudur. Ona olan ehtiram təkcə bir meyarla bağlı deyil, burada müxtəlif səviyyələr var. O, bütün həyatını bu işə həsr etdi. Ən mürəkkəb dövrdə ölkəyə rəhbərlik etmək, ən münasib həll yollarını müəyyənləşdirmək, eyni vaxtda müdriklik və cəsarət nümayiş etdirmək - bütün bunlar siyasətçiyə xas olan nadir keyfiyyətlərdir.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük ölkə deyil. O vaxt artıq Azərbaycanın bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi və biz nəhəng iqtisadi çətinliklərlə üzləşmişdik. İnflyasiya 1000 faizdən artıq idi. İşsizlik və yoxsulluq hökm sürürdü. Ordu demək olar ki, mövcud deyildi. Belə bir vəziyyətdə ölkəni parçalanmaqdan qorumağa, onu inkişaf yoluna çıxarmağa və bugünkü səviyyəyə çatdırmağa müvəffəq olmağı yalnız böyük şəxsiyyət edə bilərdi.

Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır.

Beləliklə, təkcə 100 illiyini qeyd etdiyimiz üçün deyil, ümumiyyətlə, müasir Azərbaycan haqqında danışarkən faktdır ki, təməl Heydər Əliyev tərəfindən qoyulub və 1990-cı illərin mürəkkəb dövründə onun liderliyi olmasaydı, bugünkü Azərbaycan başqa vəziyyətdə olacaqdı. Hansı problem və çətinliklərlə üzləşəcəyini heç təsəvvür etmək belə olmazdı.

**Müxbir: Dünyanın dəyişməkdə olan geosiyasi mənzərəsi fonunda Azərbaycan həssas rol oynayaraq böyük nailiyyətlər əldə edə, iqtisadi və sosial baxımdan özü üçün nadir inkişaf yolu yarada bilib. İcazənizlə, Çin-Azərbaycan əlaqələrindən danışaq. Bu yaxınlarda Siz bu münasibətləri əla adlandırdınız. Hazırda vəziyyət nə yerdədir və Sizcə bu əlaqələri növbəti səviyyəyə qaldırmaq üçün nə edilməlidir?**

**Prezident İlham ƏLİYEV:** Bəli, bunu bir daha təsdiq edə bilərəm ki, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ifadə ikitərəfli əlaqələrin geniş gündəliyini və əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir. Hesab edirəm ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. Ümid edirəm ki, bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır.

*Ardı 3-cü səh.*

# Azərbaycan və Çin arasında yekdil siyasət var, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır

## Azərbaycan Prezidenti İlham Əliyev Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verib

*Əvvəli 2-ci səh.*

Çünki bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkələrimiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edirlər. Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür. İqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Biz ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir.

Beləliklə, xarici siyasət prioritetlərinə və gündəliyə gəldikdə, mən Azərbaycanın və Çinin siyasətləri arasında və istənilən digər istiqamətdə bir çox oxşarlıqlar görürəm. Son zamanlar bizim münasibətlərimiz daha da intensivləşib və əlbəttə, mənim cənab Si Cinpinlə görüşlərim istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır. Bu səbəbdən uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır.

**Müxbir: Siz bir neçə dəfə Prezident Si Cinpinlə görüşlərinizə toxundunuz. Sizin onun bir lider kimi haqqında fikriniz nədir, o, Sizdə necə təəssürat yaradır?**

**Prezident İlham ƏLİYEV:** Mənim Prezident Si Cinpinlə həm Çində, həm də beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmək imkanım olub. Ona dərin ehtiramım var. Onun uzaqgörənliyi, zəkası, səmimiliyi və ikitərəfli münasibətlərimiz barəsində geniş məlumatlı olması məndə hər zaman dərin təəssürat yaradıb. Çünki qlobal bir güc olaraq Çinin çox geniş xarici siyasət gündəliyi var və həmin gündəlik təbii olaraq Azərbaycanın gündəliyindən daha genişdir.

Buna baxmayaraq, bizim əməkdaşlığımızın mahiyyəti və perspektivləri barədə dərindən məlumatlı olması göstərir ki, cənab Si Cinpin olduqca məsuliyyətli şəxsdir və çox uğurlu xarici siyasət bunun nəticəsidir. Bilirsiniz ki, dünyada Çinin dostlarının sayı ildən-ilə artır və bu, məhz həmin müdrik siyasətin nəticəsidir. Biz onun ölkəsinin inkişafını və yardıma ehtiyacı olanlara dəstək istiqamətindəki fəaliyyətini yalnız alqışlaya bilərik. Hesab edirəm ki, bu, dünyada nadir hallardan biridir. Bu, xüsusilə indi aktual məsələdir. Vaxtında və digər mənbələrdən yardım ala bilməyən ölkələrə kömək edilir. Sizə Azərbaycanla bağlı nümunə deyə bilərəm. COVID-19 başlayanda biz peyvəndlərin olmaması səbəbindən böyük çətinliklərlə üzləşdik və bu məsələdə bizə yardım edən yeganə ölkə Çin oldu. Mən Prezident Si Cinpinə yardım ilə bağlı məktub yazdım, məsələyə dərhal cavab verildi və peyvəndlərin ilk həcmi - bir milyon doza təqdim edildi. Biz vaksinasiyaya yanvar ayının ortalarında, dünyada ilk sıralarda başladıq. Bu isə onun yardım göstərmək siyasətindən qaynaqlanırdı. Biz bunu necə unuda bilərik?!

Bununla yanaşı, deyə bilərəm ki, yəqin sizin də məlumatınız var, bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük edirdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Onlar peyvənd millətçiliyi nümayiş etdirdilər. Onu da qeyd edim ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi. Demək istədiyim odur ki, bu nümunə Çinin Azərbaycanla bağlı siyasətini nümayiş etdirir. Əminəm ki, bu siyasət yardıma ehtiyac olan zaman hər bir ölkəyə şamil edilir.

Beləliklə, dediyim kimi, mənim Prezident Si Cinpinlə çoxsaylı görüşlərim olub. İnsan olaraq o, çox mehriban, hörmətcil və səmimi adamdır və şəxsən mən onunla təmasdan çox razıyam.

**Müxbir: Bağlantı və infrastruktur layihələri haqqında danışarkən, qeyd edək ki, Azərbaycan bir rekorda imza atıb - bu, "Bir kəmər, bir yol" layihəsində iştirak edən ölkələr arasında 307 günə infrastruktur layihəsinin icrasıdır. Bu, ən qısa müddətdə icra deməkdir. Söhbət nəhəng infrastruktur layihəsindən gedir. Azərbaycan buna necə nail olub və "Bir kəmər, bir yol" layihəsinin faydasını necə görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi.

Beləliklə, "Bir kəmər, bir yol" layihəsinə qoşularkən bizim artıq hazır infrastrukturumuz var idi. Hazırda isə biz nə ilə məşğuluq? İndi biz, sadəcə, texniki imkanları artırırıq. Məsələn, biz ticarət limanımızı genişləndiririk, çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bizim dəniz ticarət limanımız bir neçə il əvvəl açıldı. Onun ovaxtkı yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə biz onun imkanlarını 25 milyon tona qədər çatdırırıq. Biz Xəzər dənizində daha çox gəmi tikirik. Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğumuza baxmayaraq, biz yeni tanker və yük gəmiləri inşa edirik ki, daha çox yük daşıya bilək. İndi biz gəmiqayırma zavodumuzu genişləndirməyi planlaşdırırıq ki, ildə 6-8 deyil, 10-20 gəmi inşa edə bilək. Həm Azərbaycanda, həm də Xəzər dənizində buna tələbat artmaqdadır.

Biz hazırda mövcud dəmir yolunu müasirləşdiririk ki, qatarların sürəti artırılsın və daha çox yüklər nəql edilsin. Biz böyük yük axınına daha yaxşı hazır olmaq üçün çox işlər görürük. Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artır. Lakin mən hesab edirəm ki, bu rəqəm bir neçə dəfə artıq ola bilər. Biz bu istiqamətdə, həmçinin çinli tərəfdaşlarımız və qonşularımızla həmin infrastruktur bağlantısının yaradılması üçün fəal işləyirik. Burada inzibati bağlantı da olmalıdır. Burada tariflərlə bağlı vahid siyasət olmalıdır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə olmalıdır ki, necə deyərlər, bu qapını daha da geniş aça bilək. Yəni gələcəkdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycan vasitəsilə daha çox yüklərin daşınmasında vacib rol oynayacaqdır. Sizin də qeyd etdiyiniz kimi, biz bütün işləri vaxtında və qısa zamanda icra etdik. Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir.

**Müxbir: Məlumdur ki, Azərbaycan "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" layihəsinin təşəbbüskarıdır. Bu nə dərəcədə əhəmiyyətlidir?**

**Prezident İlham ƏLİYEV:** Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Çünki bizə məlumdur ki, hazırkı geosiyasi vəziyyətdə Trans-Xəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Dediyim kimi, xəritəyə baxanda aydın olur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil.

**Müxbir: Dəniz yolu və Trans-Sibir marşrutu da var, ancaq vaxt baxımından daha uzundur.**

**Prezident İlham ƏLİYEV:** Bəli, bu bir səbəbdir, həmin nəqliyyat marşrutu ilə əlaqədar digər səbəb isə geosiyasi dəyişikliklər, məhdudiyyətlər və sanksiyalardır. Bu, həmin tranzit marşrutunu mürəkkəbləşdirir. Beləliklə, sual yaranır - Xəzər dənizi vasitəsilə olmasa, bəs haradan olsun? Mərkəzi Asiya ölkələri inkişaf edir və ixracyönümlü daha çox məhsul istehsal edir. Həmçinin daha çox məhsul alır və bu baxımdan Xəzər dənizi marşrutu həyati əhəmiyyət kəsb edir. Xoşbəxtlikdən biz illər əvvəl ev tapşırığımızı yerinə yetirmişik və hər bir şey hazırdır. İndi isə bu infrastrukturu genişləndirmək asan olacaq. Həmçinin nəqliyyat infrastrukturunun genişləndirilməsinə yatırılacaq vəsait təxmin edilən yük həcminə uyğun olacaq.

Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə, bizim hər zaman gözəl münasibətlərimiz olub. Eyni zamanda daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımalarının illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq.

**Müxbir: Məndə çox maraqlı məlumatlar var ki, Sizinlə bölüşmək istərdim. Oradan görünür ki, Çindən Avropaya göndərilən mallar dənizlə orta hesabla 36 gün çəkir, əgər siyasi məsələlər olmasa, Trans-Sibir marşrutu ilə 20 gün çəkir və Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, Orta dəhlizlə isə cəmi 12 gün çəkir.**

**Prezident İlham ƏLİYEV:** Elədir, bəli, bu həqiqətdir. Yeri gəlmişkən, biz bu səbəbdən bu marşrutun qurulmasına və çəkilməsinə başladıq, çünki o, mövcud deyildi. Bu, Azərbaycanın irəli sürdüyü və Türkiyə ilə Gürcüstandakı tərəfdaşlarımızın fəal dəstəyini almış yeni daşımalar yoludur, bağlantıdır və infrastrukturdur. 2017-ci ildə burada - Bakıda həmin layihənin rəsmi açılışı baş tutdu. Həmin vaxt Orta dəhlizlə daşımalar hələ ki, prioritetlərdən biri hesab edilmirdi. Buna görə biz lazım olduğu qədər yüklərin daşınma həcminə sərmayələr yatırdıq. Lakin hazırda biz nə ilə məşğuluq? Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək.

Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda Azərbaycan ərazisindən daşımalar həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir.

**Müxbir: Siz bağlantıların, "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni aspekti haqqında danışdınız. Biz iki gün əvvəl "Muğam Klub" restoranında olduq. Gördüklərimiz mənə böyük təəssürat bağışladı. Əlbəttə ki, qədim Karvansaranı ziyarət etdik. Orada Qədim İpək yolu ilə tanış olduq. Orada sanki zaman yenidən göz qabağına gəlir və siz tarixi, insanları, ticarəti və mədəniyyətləri, ənənələri seyr edə bilirsiniz. Çin tərəfinin "Bir kəmər, bir yol" təşəbbüsünün mədəni dəyərini necə görürsünüz? Bilirəm ki, ölkənizdə Qədim İpək yolunun bərpasına hələ 1990-cı illərdən çalışırsınız.**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, birmənalı olaraq, bu, dostluğa əlavə təkan və töhfə verəcək. Qarşılıqlı fəaliyyət yaranacaq, çünki Qədim İpək yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir. Buna görə Azərbaycanın mədəni irsi, gördüyünüz kimi, dövlətimiz tərəfindən lazımınca qorunur. Bu, bizim üçün qorunmalı, saxlanılmalı və yeni nəsillərə ötürülməli sərvətdir ki, onlar da eyni münasibət bəsləsinlər. Biz mədəni irsimizi əsrlər boyu qoruyub saxlamışıq. Baxmayaraq ki, Azərbaycan uzun müddət öz dövlətçiliyindən məhrum idi. Biz müstəqil ölkə deyildik. Lakin eyni zamanda biz milli özünəməxsusluğumuzu, dilimizi, ədəbiyyatımızı, musiqimizi və ənənələrimizi, mədəni irsimizi qoruyub saxlamışıq. Hətta müstəqil olmadığımız vaxtlarda bunu bacarmışıq. Beləliklə, dünya irsinin bir hissəsi olan mədəni irsimizin qorunmasını birmənalı olaraq davam etdirəcəyik. Eyni zamanda tərəfdaşlarla bağlantı yaradan bir çox layihələr daha çox səfərlərlə, turistlərlə, ticarətlə, qarşılıqlı fəaliyyətlə nəticələnəcək. Bunun sayəsində mədəniyyətlərimiz və cəmiyyətlərimiz daha da zənginləşəcək. Bir sözlə, biz həmin məsələyə belə nöqteyi-nəzərdən baxırıq. Bəxtimiz çox gətirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir. Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu bizim ən böyük sərvətlərimizdən biridir. Biz bunları qorumağa çalışırıq və əminəm ki, bu işin öhdəsindən gələcəyik.

**Müxbir: Atalar sözü var: "Ticarət dayananda, müharibələr başlayır".**

**Prezident İlham ƏLİYEV:** Elədir.

**Müxbir: Ticarət nə qədər çox olarsa, ölkə əhalisi üçün daha çox fürsətlər açılır.**

**Prezident İlham ƏLİYEV:** Tamamilə doğrudur. O, sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır. İnsanlar, ölkələr üçün daha çox fayda olur. Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

**Müxbir: Prezident Əliyev, Sizə deməliyəm ki, iki il əvvəl BBC-nin jurnalistinə verdiyiniz müsahibədən sonra Çində kifayət qədər məşhurlaşdınız. Bir çox insanlar deyirdilər ki, Qərbə münasibətdə maraqların tarazlaşdırılması üçün ölkə rəhbəri məhz bu cür addım ata bilərdi. Bu necə baş verdi?**

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, 44 günlük Vətən müharibəsi zamanı mən çox sayda müsahibələr verdim. Bu, əsasən, Qərb jurnalistlərinə verilən müsahibələr idi. Onların əksəriyyəti, deyərdim ki, çox aqressiv idi və çalışırdılar Azərbaycanı təcavüzkar kimi təsvir etsinlər. Bilirsiniz, öz ərazilərimizi azad etdikdə, ərazi bütövlüyümüz uğrunda vuruşduqda, biz digər ölkənin ərazisinə addım da atmadıq. Biz, sadəcə, üzləşdiyimiz 30 illik işğalın və etnik təmizləmənin nəticələrini aradan qaldırırdıq. Əlbəttə, əmin idim ki, videoreportaj hazırlamaq məqsədilə Azərbaycana gəlmiş və mənimlə görüşmək istəyən Qərb jurnalistləri yaxşıca hazırlaşmışlar. Münaqişənin tarixi, kimin təcavüzkar, kimin isə təcavüz qurbanı olması, nəyin baş verdiyi barədə onların bilməməsini təsəvvür etmək sadəlövhlük olardı. Lakin eyni zamanda onlar nəinki görüşümüz zamanı vəziyyəti təqdim etməyə çalışırdılar, - çünki Azərbaycanda olarkən çoxlu reportajlar hazırlamışdılar, - onlar çalışırdılar ki, Azərbaycanı təcavüzkar kimi qələmə versinlər. Əlbəttə, bu, tamamilə qəbuledilməz idi. Bütün bunlar Qərb mətbuatının qərəzli, qeyri-tarazlı və anti-Azərbaycan yanaşmasını nümayiş etdirdi və biz həmin reallıqda 30 il idi ki, yaşayırdıq. Bu həqiqətdir.

**Müxbir: Bir çox insan hesab etdi ki, Culian Assanj tezisi böyük əks-zərbə oldu. Bu necə fikrinizə gəldi?**

**Prezident İlham ƏLİYEV:** Əslində, əgər siz kimisə nəyinsə pozulmasında ittiham etmək istəyirsinizsə, birinci, güzgüdə özünüzə baxıb görməlisiniz, sizin üzünüzdə qüsurlar varmı? Culian Assanjın başına gələnlər tamamilə qəbuledilməzdir. Bu, söz azadlığının kobud şəkildə pozulması deməkdir. Həmin insan səfirliklərin birində illər boyu işgəncəyə məruz qalıb. Hazırda o, işgəncədədir. Mən burada mənəvi işgəncəni nəzərdə tuturam. Onun fiziki işgəncəyə məruz qalmasını bilmirəm. Bilmədiyim məsələni deyə bilmərəm. Lakin insan bəzi mənbələrdən əldə etdiyi müəyyən məlumatı açıqladığına görə əzab-əziyyətlərlə üzləşib. Bəlkə də, o, səhv edib, yaxud qaydaları pozub. Bununla belə, Qərbdəki insanlar vəziyyəti elə təsvir edirlər ki, jurnalistlər istədiklərini edə bilər və onların hər hansı cinayət təqibindən toxunulmazlığı var və əgər siz jurnalisti həbs edirsiniz, deməli, siz diktatorsunuz. Ona görə dedim, baxın Culian Assanjın məsələsinə, görün həmin insanla siz nə etdiniz? Onda siz kimisə bu məsələdə necə ittiham edə bilərsiniz? Həmin hadisə sizin tarixinizdə ən qara səhifədir. Siz də qeyd etdiyiniz kimi, iki ildən çox vaxt keçir və hazırda Culian Assanj haradadır? O, hələ də həbsxanadadır. Hələ də həbsxanadadır. Kimsə onun haqqında danışır? Yox.

**Müxbir: Mən özüm səkkiz il Vaşinqtonda müxbir işləmişəm və hər iki istiqamətdə çox şeyi öyrəndim. Azərbaycan, Çin kimi qeyri-Qərb ölkələrin Qərb mətbuatında qərəzli təsviri haqqında danışdıqda, əlbəttə, Siz hesab edirsiniz ki, onlar bu ölkələrə ədalətli yanaşmırlar. Sizcə, bu, niyə baş verir? Səhv təsvirin verilməsinin arxasında duran meyarlar nədir? Yəni qeyri-Qərb aləmini, o cümlədən Çini səhv təsvir etməyin səbəbi nədir?**

**Prezident İlham ƏLİYEV:** Eyni üsulu Çinə qarşı tətbiq etmələrinin səbəbini söyləmək mənim üçün çətindir. Çox güman ki, bunun səbəbləri var. Amma Azərbaycana gəldikdə, amillər müxtəlifdir. Əsas olmasa da, həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ, Azərbaycanofobiya mühitini yaradırlar. Lakin bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty International" və "Freedom House" müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar.

**Müxbir: Karneqi Beynəlxalq Sülh Fondu...**

**Prezident İlham ƏLİYEV:** Elədir ki, var. Onlar tam asılıdır və yiyələri ilə razılaşdırmadan bir addım belə sağa, yaxud sola ata bilməzlər. Lakin bilirsiniz, biz bu mühitdə yaşamağa öyrəşmişik. Mənim üçün Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir. İnsanlarla söhbət apardıqda görə bilərsiniz ki, onlar hökumətimiz barədə nə düşünür, gördüyümüz işlər düzdür, yoxsa səhvdir!

Cəmiyyətimizin həmrəy olması və güclü ictimai dəstək, əlbəttə, əsasən bizim siyasətimiz, əvvəlcə işğal altında olmuş ərazilərin azad edilməsi sayəsində formalaşır. Lakin həmçinin bu, anti-Azərbaycan təşviqatına olan reaksiyadır. Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, bilsin: ola bilər, o, haqlıdır, lakin həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, cəmiyyət daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışıq və Ermənistan işğalını orada pisləyən olmadı.

**Müxbir: Onlar yalnız dinc yolla nizamlamanı qeyd etdilər.**

**Prezident İlham ƏLİYEV:** Düzdür. Yalnız dinc yolla nizamlama, ərazi bütövlüyünü dilə gətirmirdilər.

**Müxbir: Bu, ikili standartların jarqonudur.**

**Prezident İlham ƏLİYEV:** Elədir! Bunlar ikili standartlardır və cəmiyyətimiz bunları çox yaxşı anlayır. Həmçinin bilmək vacibdir ki, söhbət təkcə bəzi jurnalistlərin müsahibəsindən getmir. Bu halda hökumətlər də var. Hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik. Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər.

*Ardı 4-cü səh.*

# Azərbaycan və Çin arasında yekdil siyasət var, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır

## Azərbaycan Prezidenti İlham Əliyev Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verib

*Əvvəli 3-cü səh.*

Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikasını" haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu erməninin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq. Bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir. Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışırlar!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə, siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar.

**Müxbir: Ərazi bütövlüyü haqqında danışdıqda, bir çox çinlilərin qəlbinə yaxın olan, onlar üçün əziz olan məsələ var: bu, Tayvan məsələsidir. Tayvan məsələsinə kənardan müdaxilə var. Siz öncə söylədiniz ki, Çini bölmək səylərini dəstəkləmirsiniz. Bu barədə ətraflı danışa bilərsinizmi?**

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, biz Çinin ərazi bütövlüyünü, Vahid Çin və Çinin birləşməsi siyasətini hər zaman dəstəkləmişik və dəstəkləməkdə davam edirik. Bu siyasət bir neçə il əvvəl qeyd olunub, bir çox hallarda yenidən təsdiqlənib, tamamilə dəyişməz olaraq qalır və heç zaman da dəyişməyəcək. Birincisi, bu, onunla bağlıdır ki, Çin bizim üçün dost ölkədir. İkincisi, biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir. Xalqların öz müqəddəratının təyin edilməsi hər hansı ölkənin ərazi bütövlüyü ilə ziddiyyət təşkil etməli deyil. Bu, beynəlxalq hüququn fundamental prinsipləridir. Buna görə Vahid Çin siyasəti ilə bağlı mövqeyimiz tam aydındır və ümid edirəm ki, bəzi Qərb hökumətləri də bu mövqeyə uyğun davranacaqlar.

**Müxbir: Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə, bilirik ki, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Əvvəlki hadisələrin hamısını nəzərə alaraq, cənab Prezident, Siz sülh müqaviləsi haqqında nə düşünürsünüz? Onu nə vaxt gözləmək olar? Əgər olarsa, necə olacaq?**

**Prezident İlham ƏLİYEV:** Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, - əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, - həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir. Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyulun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir - onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq onu imzalaya bilərik. Bu, həqiqətən, mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarca etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı bir problemimiz olmayıb. Buna görə Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir.



**Müxbir: Prezident Əliyev, gəlin Sizin sevdiyiniz mövzulardan birinə keçək - idman və fitnesə.**

**Prezident İlham ƏLİYEV:** Yaxşı.

**Müxbir: Siz turnikdə dartındığınız videonu qoymusunuz. 60 yaşınız tamam olurdu həmin vaxt.**

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Müxbir: On beş dəfə. Çox xoş təəssürat bağışladı. Daha çox da edə bilərsiniz?**

**Prezident İlham ƏLİYEV:** Əvvəllər çox edirdim. Sadəcə, indi birinci dəfə göstərdim. Gənc olduğum zaman bunu heç zaman göstərmirdim, çünki gənc insan üçün bunu çox etmək təbii haldır. Nəyə görə bunu göstərdim? İstəyirəm ki, gənc nəsil eynən bu cür etsin. Demək istəyirəm ki, 60 yaşın olsa belə, əgər pis vərdişlərin yoxdursa, idmanla müntəzəm məşğul olursansa, onda bunu bacararsan. Mənim gənc nəslə ismarışım bu idi. Əgər siz hesab edirsiniz ki, 60 yaşınız var, edə bilməzsiniz, yanılırsınız, bacararsınız. Amma ondan çox dartınmaq, bəlkə də, bacararam. Lakin bu, o qədər cəlbedici olmaz.

**Müxbir: Tam haqlısınız. Siz həmçinin ağır atletikanı sevdiyinizi gizlətmirsiniz. Hətta yaxın dostunuz, Prezident Ərdoğanın qarşısında hazırlıq olmadan göstərdiniz.**

**Prezident İlham ƏLİYEV:** Bu, işin asan hissəsi idi. Bəli, o qədər də ağır deyildi.

**Müxbir: Amma Siz bunu etdiniz. İdmana şəxsi sevginizi daha böyük ismarışa çevirmək bacarığınız təsirlidir. Elə baxaq Bakıya, onun mərkəzində F1 yarışları keçirilir. Sizdə 2020-ci ilin futbol üzrə Avropa çempionatının oyunları, 2015-ci ildə I Avropa Oyunları təşkil olundu. İdmana həvəsiniz barədə söyləyin, nəyə görə məhz idman?**

**Prezident İlham ƏLİYEV:** Birincisi, mən idmanı sevirəm. İkincisi, ömrüm boyu mən idmanla müəyyən fasilələrlə məşğul olmuşam. Əfsuslar ki, bəzən atmışam, sonra yenidən başlamışam. Gənc yaşlarımda idmanla çox fəal məşğul olurdum. Sonra dayandırırdım və yenidən başlayanda mənim üçün formanı qaytarmaq çox asan olurdu.

İkincisi, idman ictimai həyatın mühüm amilidir. İşğal dövründə idman qələbələrimiz insanların şüurunda Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra bir növ rəmzi kompensasiya oldu. Beləliklə, biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi. Çünki idmançılarınız qalib gələndə, bayrağımız qalxanda, himnimiz çalınanda adamı böyük qürur hissləri bürüyür. Bu, gənc nəsil üçün vətənpərvər olmaqda mühüm amil idi, çünki mən aydın şəkildə anladım ki, bunsuz biz qələbə qazana bilməyəcəyik. Bəli, biz müdafiə imkanlarımıza, hərbçilərimizin təliminə böyük sərmayələr yatırdıq. Biz İkinci Qarabağ müharibəsinə hazırlaşmaq üçün çox işlər gördük. Lakin sizə deyə bilərəm ki, hazırda, iki il yarımdan sonra, qələbəmizin əsas meyarı qələbə ruhu idi. Torpaqları azad edənlər həyatlarında heç vaxt Qarabağı görməmişdilər, çünki çox gəncdirlər. Qarabağ işğal ediləndə onlar heç anadan olmamışdılar. Beləliklə, onları bu məqsədə aparan nə idi? Qələbə ruhu, vətənpərvərlik və ləyaqət idi. İdman həm budur, həm fiziki sağlamlıq deməkdir, çünki biz istəyirik ki, cəmiyyətimiz sağlam olsun. Biz istəyirik cəmiyyətimiz fiziki baxımdan güclü olsun. Bunun üçün idman birinci yerdədir. Əlbəttə ki, yaxşı qida, pis vərdişlərin olmaması məsələsi də var. İdman bəlkə onları üstələyir. Həmçinin hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq. Eyni zamanda bu, beynəlxalq nüfuz deməkdir, çünki I Avropa Oyunları, həqiqətən, Azərbaycanı Avropaya açdı. "Formula-1" yarışlarını artıq yeddi dəfə keçirmişik. Xüsusən də nəzərə alsaq ki, o, şəhər küçələrində baş verir. Bu, Bakını heç vaxt görməyən üçün şəhərimizin təqdimatıdır. "Formula-1"in auditoriyası 500 milyondur. İlk "Formula-1" yarışlarından sonra turizm 20 faiz artdı və COVID-dən əvvəl hər il on - on beş faiz artım var idi. Yarışlar sayəsində çoxlu xarici turist gəldi. Ölkəyə çox xarici valyuta daxil oldu. Bir çox amillər hər bir hökumətin idmanın inkişafına böyük diqqət yetirməli olduğunu göstərir.

**Müxbir: 2020-ci ilin futbol üzrə Avropa çempionatını çox yaxşı xatırlayıram.**

**Prezident İlham ƏLİYEV:** Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Ölkəmizdə həmçinin 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Təsəvvür edin, 2015-ci ildə I Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları bir şəhərdə cəmi iki il ərzində keçirilib. Bu bir daha Azərbaycanı idman ölkəsi kimi nümayiş etdirir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz müsəlman aləminin, eyni zamanda Avropanın bir hissəsidir. Ölkəmizin yerləşməsi çox unikaldır. Ölkəmizin siyasəti, cəmiyyətin statusu bütün bunların təzahürüdür.

**Müxbir: Prezident Əliyev, Hancouda Asiya Oyunları yaxınlaşır və Çinin Çendu şəhərində Dünya Universitet Oyunları gözlənilir. İdmançılara və iştirakçılara nə deyərdiniz? Çində keçiriləcək həmin oyunlardan gözləntiləriniz?**

**Prezident İlham ƏLİYEV:** Mən yalnız uğurlar arzulayıram. Əminəm ki, oyunlar mümkün ən yüksək səviyyədə təşkil olunacaq. Çində idman tədbirlərinin necə təşkil edildiyinə bələdəm. Mən Pekində keçirilmiş Olimpiya oyunlarında oldum, 2008-ci ildə gözəl ölkənizdə bir neçə gün keçirdim. Yəqin bilirsiniz, biz Asiya oyunlarında iştirak etmirik, lakin Dünya Universitet Oyunlarında 150-dən artıq atletlə böyük komanda ilə iştirak edəcəyik. Onların sayı heç zaman olmadığı qədər bir neçə dəfə çox olacaq. İdmançılara qələbə, təşkilatçılara uğurlar, Çin xalqına bu oyunlarda sevinc arzu edirəm.

**Müxbir: Son olaraq, Azərbaycan sıravi çinlilərə görə uzaq, lakin sirli ölkədir. Mən burada ölkə Prezidenti ilə əyləşmişəm. İcazə verin soruşum: Siz proqramımızın çinli tamaşaçılarına söyləyə bilərsinizmi nəyə görə onlar Azərbaycanı növbəti turizm məkanı kimi seçməlidirlər?**

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, birincisi, insanlarımız çox mehriban və qonaqpərvərdirlər. İkincisi, bizim çox müasir hotel infrastrukturumuz var. Rəngarəng təbiətimiz var. Ölkədə doqquz iqlim qurşağı var. Ölkənin ərazisi o qədər böyük deyil, siz qatarla, avtomobillə və yaxud ən uzağı təyyarə ilə asanca qət edə bilərsiniz. Yol infrastrukturu ən yaxşılar sırasındadır. Mətbəx, fikrimcə, ən yaxşılar sırasındadır.

**Müxbir: Biz çoxlu kabab yedik.**

**Prezident İlham ƏLİYEV:** Hava çox yaxşıdır. Dağlarda xizək sürə bilərsiniz. Xəzər dənizində üzə bilərsiniz. Velosipedlə dağlara çıxmaq, palçıq vulkanlarını görmək, Qarabağın dağlarına və meşələrinə getmək olar. Göl və çaylarımız var. Həmçinin düşünürəm ki, çinli turistlər görəcəklər ki, Azərbaycan xalqının Çinə böyük rəğbəti var. Onlar ölkənizi tanıyır, dost olduğumuzu bilirlər. Ona görə çinlilər özlərini öz evlərindəki kimi hiss edəcəklər.

**Müxbir: Prezident Əliyev, ölkənizdə bizi qəbul etdiyinizə görə bir daha çox sağ olun. Bu müsahibəyə görə minnətdarıq.**

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240, № 12, maddə 1392; 2023, № 1, maddə 14, № 2, maddə 207, № 3, maddə 338) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 66-cı maddənin on ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən sertifikatlaşdırmaya cəlb edilən təhsilverənlər.";

1.2. 67-2-ci maddə üzrə:

1.2.1. adına və 1-ci hissəyə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin;

1.2.2. 3-cü hissədə "beş" sözü "üç" sözü ilə əvəz edilsin;

1.2.3. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.";

1.3. 70-ci maddənin "Qeyd" hissəsinə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin.

**Maddə 2.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012; 2019, № 6, maddə 986, № 12, maddə 1881; 2020, № 6, maddə 664, № 7, maddələr 831, 851, № 11, maddə 1335; 2021, № 8, maddə 895; 2022, № 8, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 1.0.17-1-ci, 4.0.12-1-ci və 20-1-ci maddələr əlavə edilsin:

"1.0.17-1. sertifikatlaşdırma - dövlət məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması proseduru;";

"4.0.12-1. dövlət məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarını təsdiq etmək;";

**"Maddə 20-1. Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilverənlərin sertifikatlaşdırılması**

20-1.1. Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlər 5 (beş) ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sertifikatlaşdırmadan keçirlər. Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

20-1.2. Aşağıdakı şəxslər sertifikatlaşdırmadan keçmirlər:

20-1.2.1. hamilə qadınlar;

20-1.2.2. uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);

20-1.2.3. ilk dəfə işə qəbul olunanlar, 3 (üç) il müddətində;

20-1.2.4. azı üç dəfə sertifikatlaşdırmadan keçmiş şəxslər.

20-1.3. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.

20-1.4. Sertifikatlaşdırmadan keçən şəxslərə 5 (beş) il müddətində dövlət məktəbəqədər təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ verilir.

20-1.5. Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən şəxslərin 1 (bir) il müddətində iş yeri saxlanılmaqla, təkrar sertifikatlaşdırmada iştirak etmək hüququ vardır. Təkrar sertifikatlaşdırmada iştirak etməyən şəxslər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

20-1.6. Təkrar sertifikatlaşdırmadan keçməyən şəxslərlə əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq tənzimlənir.";

2.2. 4.0.12-ci maddəyə "attestasiyası" sözündən sonra "(sertifikatlaşdırılması)" sözü və "attestasiyanı" sözündən sonra "(sertifikatlaşdırılmanı)" sözü əlavə edilsin;

2.3. 13.6-cı maddəyə "attestasiyadan" sözündən sonra "(sertifikatlaşdırmadan keçən işçilər istisna olmaqla)" sözləri əlavə edilsin;

2.4. 18.2.2-ci maddədə "attestasiyadan" sözü "sertifikatlaşdırmadan" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789; 2020, № 6, maddə 664, № 7, maddə 851, № 11, maddə 1335; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548; 2022, № 6, maddə 588, № 8, maddə 829; 2023, № 1, maddə 43, № 2, maddə 207) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.34-cü maddədə "və idarəetmə fəaliyyəti ilə" sözləri "fəaliyyətlə" sözü ilə əvəz edilsin;

3.2. 28.2.3-cü maddədə "5 (beş)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 28.2-1-ci maddə əlavə edilsin:

"28.2-1. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

# "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2005-ci il 14 iyul tarixli 258 nömrəli, "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 9 avqust tarixli 1009 nömrəli, "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Elm haqqında" Azərbaycan Respublikası Qanununun 11.3-cü maddəsinin ikinci cümləsində, 13.1-ci və 22.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13.1-ci və 22.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897; 2016, № 10, maddə 1627; 2017, № 5, maddə 770; 2018, № 2, maddə 207; 2019, № 5, maddə 847; 2020, № 8, maddə 1037, № 12 (I kitab), maddə 1487; 2021, № 8, maddə 920) 2.1-1-ci bəndindən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" və "və elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın.

4. "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1370; 2017, № 11, maddə 2028; 2019, № 7, maddə 1231; 2020, № 5, maddə 550, № 6, maddə 713) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə ", 12.13-cü" sözləri "maddələrində, 11.3-cü maddəsinin ikinci cümləsində" sözləri ilə əvəz edilsin;

4.2. 2.3-1-ci və 2.3-2-ci bəndlər müvafiq olaraq 2.3-3-cü və 2.3-4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

"2.3-1. həmin Qanunun 11.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"2.3-2. həmin Qanunun 13.1-ci və 22.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;";

4.3. 2.5-ci bənddən ", 12.13-cü, 13.1-ci, 22.1-ci" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1488; 2021, № 8, maddə 923) 2.1.2-ci yarımbəndindən "və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində" və "və elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" 1999-cu il 15 aprel tarixli 122 nömrəli, "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 19 iyun tarixli 1471 nömrəli, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 20-1.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20-1.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 20-1.1-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.12-1-ci maddəsinə uyğun olaraq, dövlət məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348; 2022, № 6, maddə 596, № 8, maddə 863, № 11, maddə 1270; 2023, № 3, maddə 352) 2-ci hissəsinin on ikinci abzasına "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin.

5. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700, № 10, maddə 2018; 2020, № 6, maddə 699, № 11, maddə 1362; 2021, № 12, maddə 1366) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "cümləsində" sözündən sonra ", 20-1.1-ci maddəsinin birinci və ikinci cümlələrində" sözləri əlavə edilsin;

5.2. 2.2-ci bəndə "attestasiyası" sözündən sonra "(sertifikatlaşdırılması)" sözü əlavə edilsin;

5.3. aşağıdakı məzmunda 2.2-1-ci və 2.5-2-ci bəndlər əlavə edilsin:

"2.2-1. həmin Qanunun 20-1.1-ci maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

"2.5-2. həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.5-ci maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə münasibətdə - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;";

5.4. 2.5-ci bənddə "15.3-cü və 23.3-cü maddələrində" sözləri "23.3-cü maddəsində" sözləri ilə əvəz edilsin, həmin bənddən "4.0.5-ci," sözləri çıxarılsın və həmin bəndə "attestasiyasını" sözündən sonra ", təhsilverənlərin sertifikatlaşdırılmasını" sözləri, "4.0.13-cü," sözlərindən əvvəl "4.0.12-1-ci," sözləri, "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

5.5. 2.5-1-ci bəndə "cümləsində" sözündən sonra "və 20-1.1-ci maddəsinin birinci cümləsində" sözləri və "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin.

6. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863; 2020, № 6, maddə 699, № 7, maddə 868, № 11, maddə 1362; 2021, № 6 (I kitab), maddə 573) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.4-cü bənddən "20.2-ci maddəsində," sözləri çıxarılsın və həmin bəndə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

6.2. 2.5-ci bənddən "4.0.9-cu," sözləri çıxarılsın və həmin bəndə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

6.3. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş "orqanın (qurumun)" səlahiyyətlərini və 4.0.9-cu maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinə münasibətdə - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

# "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1366; 2018, № 11, maddə 2198; 2020, № 5, maddələr 513, 514, № 6, maddə 669; 2021, № 6 (I kitab), maddə 540) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.22-ci maddədən ", elmlə təhsilin vəhdətini təmin edən" sözləri çıxarılsın.

2. 6.0.12-ci maddədə "Azərbaycan Respublikasının və xarici ölkələrin ali təhsil müəssisələrinin və elmi müəssisələrin və təşkilatların magistratura (rezidentura) və doktoranturalarında əyani təhsil alanlara" sözləri "təhsilalanların" sözü ilə əvəz edilsin.

3. 6.0.19-cu maddədən ", təhsil qurumlarının" sözləri çıxarılsın.

4. 9.1-ci maddədən "subbakalavr peşə-ixtisas dərəcəsi almış" sözləri çıxarılsın.

5. 11-ci maddə üzrə:

5.1. 11.1-ci maddədə "inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, ölkə üzrə elmi müəssisələrin və təşkilatların və ali təhsil müəssisələrinin elmi tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, elmi-texniki fəaliyyət sahəsində Azərbaycan Respublikasını xarici ölkələrdə təmsil edən" sözləri "inkişafının təmin edilməsində və elm sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak edən" sözləri ilə əvəz edilsin;

5.2. 11.3-cü maddədə "elmin müxtəlif sahələri" sözləri "onun fəaliyyət istiqamətləri" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət ali elmi təşkilatının strukturu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

5.3. 11.4-cü maddədə "elmin və hərtərəfli elmi-texniki inkişafın təmin edilməsi məqsədi ilə" sözləri "fəaliyyət istiqamətləri üzrə" sözləri ilə əvəz edilsin və həmin maddədən "təhsil qurumları, elmi texnoloji parklar," sözləri çıxarılsın;

5.4. 11.5-ci maddədə "ölkənin" sözü "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə, ", fəlsəfə doktoru və magistr" sözləri "və fəlsəfə doktoru" sözləri ilə əvəz edilsin;

5.5. 11.6-cı maddədə "elmin müxtəlif sahələri" sözləri "fəaliyyət istiqamətləri" sözləri ilə əvəz edilsin;

5.6. 11.8-ci maddənin birinci cümləsində "və xarici" sözləri ", xarici və fəxri" sözləri ilə əvəz edilsin;

5.7. 11.9-cu maddəyə "elm sahəsində" sözlərindən əvvəl "fəaliyyət istiqamətləri üzrə" sözləri əlavə edilsin.

6. 12.13-cü maddədən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın" sözləri çıxarılsın və həmin maddədə "təşkilatlarında" sözü "təşkilatlarda" sözü ilə əvəz edilsin.

7. 13.1-ci maddəyə "elmi təşkilatın" sözlərindən əvvəl "orqanın (qurumun)," sözləri əlavə edilsin.

8. 22.1-ci maddədə "elmi təşkilat" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830, № 11, maddələr 1329, 1335, № 12 (I kitab), maddə 1420; 2021, № 2, maddə 108, № 6 (I kitab), maddə 547, № 11, maddə 1209; 2022, № 6, maddə 589; 2023, № 2, maddələr 207, 211) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.6-cı və 33.3.9-cu maddələrə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin;

1.2. 1.0.6-1-ci maddəyə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin və həmin maddədə "və idarəetmə fəaliyyəti ilə" sözləri "fəaliyyətlə" sözü ilə əvəz edilsin;

1.3. 1.0.54-cü və 22.5-1-ci maddələr ləğv edilsin;

1.4. 14.8-1-ci maddənin birinci cümləsindən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində," sözləri çıxarılsın;

1.5. 22.5-ci maddədən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda" sözləri çıxarılsın;

1.6. 29.0-cı maddə üzrə:

1.6.1. 29.0.2-ci maddədə "inkişaf konsepsiyasını və əsas prioritetlərini" sözləri "inkişafına dair strategiyaları, konsepsiyaları və prioritet inkişaf istiqamətlərini" sözləri ilə əvəz edilsin;

1.6.2. aşağıdakı məzmunda 29.0.10-3-cü, 29.0.37-1-29.0.37-3-cü və 29.0.42-1-ci maddələr əlavə edilsin:

"29.0.10-3. peşə təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını müəyyən etmək;";

"29.0.37-1. yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını müəyyən etmək;

29.0.37-2. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri müəyyən etmək;

29.0.37-3. ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydasını təsdiq etmək;";

"29.0.42-1. ali təhsil müəssisələrində elmi-tədqiqat və elmi-metodik işlərin təşkili qaydalarını və professor-müəllim heyətinin tədris işi vaxt normasını müəyyən etmək;";

1.6.3. 29.0.26-cı maddəyə "elmi-metodik" sözlərindən sonra ", tədris-metodiki" sözləri əlavə edilsin;

1.6.4. 29.0.29-cu və 29.0.43-cü maddələrə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin;

1.6.5. 29.0.31-ci maddəyə "əlaqələndirmək" sözündən sonra ", elmi-tədqiqat işlərini dəstəkləmək və mükafatlandırmaq" sözləri əlavə edilsin;

1.6.6. 29.0.37-ci maddəyə "planlarını" sözündən sonra "(ali və orta ixtisas təhsili müəssisələri üzrə tədris planları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.7. 36-2-ci maddə üzrə:

1.7.1. adına, 36-2.1-ci və 36-2.2-ci maddələrə "Dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin;

1.7.2. 36-2.3.3-cü maddədə "5 (beş)" sözləri "3 (üç)" sözləri ilə əvəz edilsin;

1.7.3. aşağıdakı məzmunda 36-2.3-1-ci maddə əlavə edilsin:

"36-2.3-1. 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür.";

1.7.4. 36-2.4-cü maddəyə birinci halda "dövlət" sözündən sonra "məktəbəqədər və" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanunun 1.3-cü və 1.4-cü maddələri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851, № 11, maddələr 1323, 1335, № 12 (I kitab), maddə 1421; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548, № 8, maddə 895, № 11, maddə 1210; 2022, № 5, maddə 439, № 8, maddə 829) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.0.19-1-ci və 4.0.19-2-ci maddələr əlavə edilsin:

"4.0.19-1. dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbulu və yerdəyişməsi qaydalarını təsdiq etmək;

4.0.19-2. peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada hazırlanmasını təmin etmək;".

2. 18.2.2-ci maddədən "təhsilalma formasını," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.0.19-2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsinə uyğun olaraq, peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.19-1-ci maddəsinə uyğun olaraq, dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbulu və yerdəyişməsi qaydalarını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841; 2020, № 7, maddə 893, № 11, maddələr 1360, 1362; 2021, № 6 (I kitab), maddə 573; 2022, № 5, maddə 458) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə "Qanununun" sözündən sonra "4.0.19-2-ci," sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. həmin Qanunun 4.0.19-2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.3. 2.3-cü bəndə "4.0.20-ci" sözlərindən əvvəl "4.0.19-1-ci, 4.0.19-2-ci," sözləri, "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

4.4. 2.3-1-ci, 2.10-cu və 2.12-ci bəndlərə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

4.5. 2.4-cü bənddən "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında" sözləri çıxarılsın və həmin bəndə (hər üç halda) "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.37-3-cü maddəsinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.10-3-cü maddəsinə uyğun olaraq, peşə təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını;

2.2. həmin Qanunun 29.0.37-1-ci maddəsinə uyğun olaraq, yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını;

2.3. həmin Qanunun 29.0.37-2-ci maddəsinə uyğun olaraq, təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri;

2.4. həmin Qanunun 29.0.42-1-ci maddəsinə uyğun olaraq, ali təhsil müəssisələrində elmi-tədqiqat və elmi-metodik işlərin təşkili qaydalarını və professor-müəllim heyətinin tədris işi vaxtı normasını.

3. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571, № 11, maddə 1218, № 12, maddə 1364; 2023, № 2, maddə 244) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən "1.0.54-cü,", "14.8-1-ci maddəsində," və "22.5-ci, 22.5-1-ci," sözləri çıxarılsın və həmin bəndə "29.0.34-cü" sözlərindən əvvəl "29.0.21-ci (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə)," sözləri əlavə edilsin;

3.2. 2.2-ci bənddən "29.0.21-ci (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə)," sözləri çıxarılsın və həmin bəndə "ümumi təhsil müəssisələrində" və "ümumi təhsil müəssisələrinin" sözlərindən əvvəl "məktəbəqədər və" sözləri, "29.0.32-ci," sözlərindən sonra "29.0.37-3-cü," sözləri əlavə edilsin;

3.3. 2.3-cü bənddən "30.2-ci maddəsinin birinci cümləsində (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan uşaq evləri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin edilməsi üzrə)," və "29.0.13-cü (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyindəki uşaq evləri istisna olmaqla, digər dövlət təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə)," sözləri çıxarılsın və həmin bəndə "29.0.10-2-ci," sözlərindən sonra "29.0.10-3-cü," sözləri, "29.0.37-ci," sözlərindən sonra "29.0.37-1-ci, 29.0.37-2-ci," sözləri, "və 29.0.43-cü" sözlərindən əvvəl ", 29.0.42-1-ci" sözləri, "Təhsil Nazirliyi" sözlərindən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.4. 2.3-1-ci, 2.4-1-ci və 2.7-ci bəndlərə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.5. 2.8-ci bənddə (hər iki halda) "Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələri" sözləri "Elm və Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələri" sözləri ilə əvəz edilsin;

3.6. aşağıdakı məzmunda 2.9-1-ci və 2.9-2-ci bəndlər əlavə edilsin:

"2.9-1. həmin Qanunun 30.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini və 29.0.13-cü maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə münasibətdə - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;

2.9-2. həmin Qanunun 30.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini və 29.0.13-cü maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinə münasibətdə - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;";

3.7. 2.10-cu bənddən "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında" sözləri çıxarılsın və həmin bəndə (hər üç halda) "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

3.8. 2.10-1-ci bəndə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin və həmin bənddən "Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə" sözləri çıxarılsın;

3.9. 2.11-ci bənd ləğv edilsin.

4. Bu Fərmanın 3.1-ci ("Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.21-ci maddəsinə münasibətdə istisna olmaqla) və 3.9-cu bəndləri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 279-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 21 iyun tarixli 939 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 337-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2016-cı il 18 noyabr tarixli 1116 nömrəli, "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 832-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 5 dekabr tarixli 1706 nömrəli və "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 836-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 14 dekabr tarixli 1720 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 279-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 iyun tarixli 939 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1035) 3-cü hissəsi ləğv edilsin.

2. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1822; 2021, № 11, maddə 1212) 3-cü hissəsi ləğv edilsin.

3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 337-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 1116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1823) 3-cü hissəsi ləğv edilsin.

4. "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 832-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 dekabr tarixli 1706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2274) 3-cü hissəsi ləğv edilsin.

5. "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 836-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 1720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2288) 3-cü hissəsi ləğv edilsin.

6. Bu Fərmanın 2-ci və 3-cü hissələri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## X.A.Xələfovun Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xələf Alı oğlu Xələfov Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## X.A.Xələfovun Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilməsi və bundan irəli gələn bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xələf Alı oğlu Xələfov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilsin.

2. "Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli 1158 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 878) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün maliyyə vəsaitinin ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud yayım stansiyalarının maddi-texniki bazasının yaxşılaşdırılması, dayanıqlı fəaliyyətinin təmin edilməsi və fasiləsiz enerji təminatı üçün zəruri infrastrukturun yaradılması, radioyayım şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi, eləcə də milli radiotezlik resursundan səmərəli istifadə məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün avadanlığın alınması və quraşdırılması, eləcə də mövcud yayım stansiyalarının maddi-texniki bazasının yaxşılaşdırılması, dayanıqlı fəaliyyətinin təmin edilməsini dəstəkləyən zəruri infrastrukturun yaradılması və istismar xərclərinin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 13,7 milyon (on üç milyon yeddi yüz min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində göstərilən tədbirlərin icrası ilə əlaqədar növbəti üç il ərzində istismar xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin müvafiq illər üzrə dövlət büdcəsi layihəsində nəzərdə tutulmasını təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 124, № 12, maddə 1365; 2022, № 2, maddə 103, № 6, maddə 594, № 8, maddə 878) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 22, maddə 947; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 419; 2001, № 3, maddə 143; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2007, № 11, maddə 1052; 2009, № 12, maddə 968; 2014, № 10, maddə 1153; 2016, № 6, maddə 980; 2017, № 12 (I kitab), maddə 2200; 2018, № 4, maddə 644, № 7 (I kitab), maddə 1385; 2019, № 1, maddə 36; 2020, № 7, maddə 842; 2021, № 6 (I kitab), maddə 542; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 817-VIQD nömrəli Qanunu) 26-1.1-ci maddəsində "elmi təşkilat" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddələr 282, 293; 2001, № 12, maddə 731; 2003, № 10, maddə 539; 2004, № 7, maddə 507; 2007, № 5, maddə 401, № 6, maddə 561; 2008, № 7, maddə 602; 2016, № 11, maddə 1764; 2019, № 5, maddə 797; 2020, № 7, maddə 826; 2021, № 6 (I kitab), maddə 536, № 7, maddə 706, № 8, maddə 896, № 10, maddə 1093, № 11, maddə 1200; 2022, № 11, maddə 1241) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci maddənin ikinci hissəsinin ikinci abzasından "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində" sözləri və "və elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın;

2.2. 3-cü maddənin ikinci hissəsinin beşinci abzasından "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda" sözləri çıxarılsın.

**Maddə 3.** "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 415; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 235, 237, № 12, maddə 706; 2004, № 4, maddə 202, № 6, maddə 396, № 10, maddələr 761, 779; 2007, № 5, maddə 442, № 10, maddə 938; 2008, № 8, maddə 695; 2009, № 6, maddə 398; 2014, № 10, maddə 1169; 2015, № 2, maddə 102; 2017, № 6, maddə 1022, № 12 (I kitab), maddə 2204; 2018, № 7 (I kitab), maddə 1384; 2022, № 8, maddə 833; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 809-VIQD nömrəli Qanunu) 14-cü maddəsinin dördüncü hissəsində "elmi təşkilat" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280; 2017, № 5, maddə 690; 2018, № 10, maddə 1965; 2019, № 3, maddə 378, № 7, maddə 1183; 2021, № 6 (I kitab), maddə 543; 2022, № 8, maddə 826; 2023, № 1, maddə 21; Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 816-VIQD nömrəli Qanunu) 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsinə "dövlət orqanlarının" sözlərindən sonra ", müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elmi müəssisə və təşkilatlarının" sözləri əlavə edilsin.

**Maddə 5.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908; 2020, № 5, maddə 507, № 6, maddə 670, № 7, maddə 827, № 11, maddə 1330, № 12 (I kitab), maddə 1425; 2021, № 8, maddə 897, № 11, maddə 1200) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci maddənin on ikinci abzasından "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində" sözləri çıxarılsın;

5.2. 5-ci maddə üzrə:

5.2.1. birinci hissədən "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində," və "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın;

5.2.2. ikinci hissənin birinci cümləsindən, üçüncü və dördüncü hissələrdən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində" sözləri çıxarılsın;

5.2.3. beşinci hissənin birinci cümləsindən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində" sözləri və ikinci cümləsindən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilat" sözləri çıxarılsın;

5.2.4. altıncı hissədən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın;

5.3. 7-ci maddənin birinci hissəsinin birinci cümləsindən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində" sözləri və ikinci hissəsinin birinci cümləsindən "və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsini" sözləri çıxarılsın.

**Maddə 6.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210; 2022, № 5, maddələr 433, 440; 2023, № 2, maddə 190) 21.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda" sözləri "elmi müəssisə və təşkilatlarda" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** Bu Qanunun 2-ci və 5-ci maddələri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

## "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1997-ci il 25 iyul tarixli 619 nömrəli, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 27 iyul tarixli 168 nömrəli, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli 188 nömrəli, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram**:

1. Müəyyən edilsin ki:

1.1. "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 26-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 26-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.3. "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.5. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Milli arxiv fondu haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 619 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 416; 2004, № 6, maddə 437; 2005, № 4, maddə 303; 2007, № 6, maddə 601; 2010, № 2, maddə 85; 2018, № 3, maddə 422) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci - doqquzuncu abzaslar müvafiq olaraq 2.1 - 2.8-ci bəndlər hesab edilsin;

3.2. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.".

4. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435; 2013, № 8, maddə 899; 2016, № 3, maddə 464; 2022, № 8, maddə 872; 2023, № 4, maddə 513) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə "(birinci halda)" sözləri "(birinci və ikinci hallarda)" sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bənddə "(ikinci halda)" sözləri "(üçüncü halda)" sözləri ilə əvəz edilsin;

4.3. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.".

5. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691; 2020, № 7, maddələr 861, 877; 2021, № 11, maddə 1212; 2023, № 3, maddə 352) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bənd ləğv edilsin;

5.2. 2.4-cü və 2.5-ci bəndlərdən "ikinci halda" sözləri çıxarılsın;

5.3. 2.8-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.10-cu bənd ləğv edilsin.

6. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84, № 3, maddə 344, № 4, maddə 471) 5.1-ci bəndindən "21.1-ci," sözləri çıxarılsın.

7. Bu Fərmanın 5-ci hissəsi 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## "Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 891; 2021, № 12, maddə 1472; 2022, № 3, maddə 391) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturu" aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatı.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi.

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi.

4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## M.M.Şixəliyevin, S.Y.Ələkbərovun və Y.S.Məmmədovun ali hərbi rütbədən və dövlət təltiflərindən məhrum edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Mövlam Məmmədismayıl oğlu Şixəliyevin, Sahib Yunus oğlu Ələkbərovun və Yasin Seyfulla oğlu Məmmədovun ağır və xüsusilə ağır cinayətlər törətdiklərinə görə məhkum olunmaları barədə məhkəmə hökmünün qanuni qüvvəyə minməsini və Bakı Hərbi Məhkəməsinin təqdimatlarını əsas götürərək **qərara alıram:**

1. Mövlam Məmmədismayıl oğlu Şixəliyev general-mayor ali hərbi rütbəsindən, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenindən, "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medallarından məhrum edilsin.

2. Aşağıdakı şəxslər "Vətən uğrunda" medalından məhrum edilsinlər:

2.1. Sahib Yunus oğlu Ələkbərov;

2.2. Yasin Seyfulla oğlu Məmmədov.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 674; 2019, № 5, maddə 848, № 11, maddə 1718;2021, № 2, maddə 125) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 2-ci hissəsinə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsi" aşağıdakı redaksiyada verilsin:

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) peşə təhsili sahəsində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, peşə təhsili müəssisələrinin fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. peşə təhsili müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. peşə təhsili müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.6. təhsil proqramları vasitəsilə təhsilalanlara sistemləşdirilmiş bilik, bacarıq və səriştələrin aşılanmasını, onların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanmasını təmin etmək;

2.1.7. təhsilverənlərin peşəkarlığının davamlı şəkildə artırılması işini təşkil etmək;

2.1.8. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

### 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. peşə təhsili müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.4. peşə təhsilinin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.5. peşə təhsili müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.6. peşə təhsili müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.7. hər tədris ili üçün peşə təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulu barədə təklifləri Nazirliyə təqdim etmək;

3.1.8. peşə təhsili müəssisələrinə tələbə qəbulunu həyata keçirmək;

3.1.9. təhsil proqramlarına (kurikulumlara), tədris planlarına və proqramlarına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.10. peşə təhsili müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.11. peşə təhsili müəssisələrində yeni təhsil proqramlarının (ixtisasların) açılmasına dair Nazirliyə təkliflər vermək;

3.1.12. peşə təhsili müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.13. cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təlim-tədris prosesini həmin müəssisələrdəki xüsusi rejimin tələblərinə riayət olunmaqla təşkil etmək;

3.1.14. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilini təmin etmək;

3.1.15. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı müsabiqələr və yarışlar keçirmək;

3.1.16. dövlət peşə təhsili müəssisələrində təhsilalanların xüsusi iş geyim formaları ilə təmin edilməsi üçün tədbirlər görmək;

3.1.17. peşə təhsili və əlavə təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsiilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.18. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan peşə təhsili müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan peşə təhsili müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.19. peşə təhsili pilləsində təhsilalanların attestasiyasının (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirilməsinə nəzarət etmək;

3.1.20. müvafiq sahədə planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla)həyata keçirmək;

3.1.21. dövlət peşə təhsili müəssisələrinin ümumtəhsil və ixtisas dərslikləri, tədris-metodiki vətədris vəsaitləri, multimedia sistemləri, ədəbiyyatlar, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.22. tabeliyində olan peşə təhsili müəssisələrinin fənn və ixtisas müəllimlərinə, istehsalat təlimi ustalarına tələbatı barədə məlumatı Nazirliyə təqdim etmək;

3.1.23. dövlət peşə təhsili müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.24. tabeliyində olan peşə təhsili müəssislərində təhsil fəaliyyətinin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

3.1.25. tabeliyində olan peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin, mühəndis-pedaqoji heyətin əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirləri həyata keçirmək;

3.1.26. peşə təhsili müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.27. tabeliyində olan peşə təhsili müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.28. peşə təhsili müəssisələri ilə xarici ölkələrin peşə təhsili müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarını əlaqələndirmək;

3.1.29. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.30. təhsilalanların təhsil müəssisəsinin, ixtisasının dəyişdirilməsinin və təhsil müəssisəsinə bərpa olunmasının həyata keçirilməsini təmin etmək;

3.1.31. peşə təhsili pilləsinin bir səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna nəzarət etmək;

3.1.32. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.33. hüquqi və fiziki şəxslərin iştirakı ilə tədris-istehsalat sahələrinin qurulmasına şərait yaratmaq;

3.1.34. mülkiyyət növündən asılı olmayaraq hüquqi və fiziki şəxslərlə, eləcə də digər qurumlarla müqavilə əsasında, tabeliyində olan peşə təhsili müəssisələrində kadr hazırlığı işini təşkil etmək;

3.1.35. təhsilalanların istehsalat təcrübəsi keçməsini və iş yerində öyrənməni təmin etmək üçün peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlıq müqavilələrinin bağlanılmasını təmin etmək;

3.1.36. tabeliyində olan peşə təhsili müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədilə hüquqi və fiziki şəxslərlə birgə fəaliyyət müqavilələrinin bağlanılmasını təşkil etmək;

3.1.37. işəgötürənlərin sifarişləri əsasında, tabeliyində olan peşə təhsili müəssisələrində və iş yerlərində əlavə təhsil kursları təşkil etmək;

3.1.38. peşə təhsili müəssisələri məzunlarının məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə işəgötürənlərlə əməkdaşlığı təşkil etmək;

3.1.39. peşə təhsili üzrə ixtisasların təsnifatı barədə Nazirliyə təkliflər vermək;

3.1.40. müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.41. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.42. dövlət peşə təhsili müəssisələrində pedaqoji şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.43. müvafiq sahədə statistik məlumatların və hesabatların toplanılmasını, təhlilini və nəticələrin müvafiq orqanlara təqdim edilməsini həyata keçirmək;

3.1.44. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.45. peşə təhsili müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən istifadəsini təmin etmək;

3.1.46. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.47. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.48. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.49. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.50. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.51. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.52. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.53. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Agentliyin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. peşə təhsili müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.5. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq, peşə təhsili müəssisələri işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət peşə təhsili müəssislərində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. dövlət peşə təhsili müəssisələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.9. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.10. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.5. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.7. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olmayan tabeliyindəkipeşə təhsili müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi vəhəyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyul 2023-cü il*

# YAP Mərkəzi Aparatının rəhbəri Kambocada parlament seçkilərini müşahidə edib





Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) nümayəndə heyətinin üzvləri - Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov və YAP-ın üzvü, "Millennium Tourism & Congress DMC"nin həmtəsisçisi və baş icraçı direktoru, ICAPP-ın Biznes Şurasının üzvü Ruslan Quliyev parlament seçkilərini müşahidə etmək məqsədilə Kamboca Krallığına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Yeni Azərbaycan Partiyasının nümayəndələri bir sıra görüşlərdə və seçki prosesinin müşahidəsində iştirak ediblər.

İyulun 22-də Kamboca Krallığının Baş naziri, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen ICAPP missiyasının üzvlərini Sülh Sarayında qəbul edib. Görüş zamanı Baş nazir Hun Sen qonaqlara Kambocanın demokratik inkişaf yolundan bəhs edib, müşahidə missiyasına fəaliyyətində uğurlar arzulayıb.

Həmin gün ICAPP missiyasının üzvləri ilə FUNCİNPEC Partiyasının prezidenti, kral ailəsinin üzvü Norodom Çakravut və "Grassroots" Demokratik Partiyasının prezidenti Yeng Virak arasında da görüşlər keçirilib. Görüşlərdə hər iki partiyanın seçki platforması haqqında ətraflı məlumat verilib, müşahidəçilərin sualları cavablandırılıb.

Günün sonunda nümayəndələr Baş nazirin müavini, Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Prak Sokhonnun adından verilən şam yeməyinə qatılıblar.

İyulun 23-də ICAPP missiyasının üzvləri paytaxt Pnompendəki bir sıra seçki məntəqələrində səsvermənin gedişini və səslərin sayılmasını müşahidə ediblər. Prosesin başa çatmasından sonra ICAPP missiyasının müşahidələrin nəticələrini əks etdirən bəyanatı hazırlanıb.

İyulun 24-də keçirilmiş mətbuat konfransında ICAPP-ın baş katibi Ahn Myung-soo müşahidənin nəticələri barədə ətraflı məlumat verib, ICAPP-ın yekun bəyanatı səsləndirilib. Qeyd olunub ki, aparılan müşahidələr parlament seçkilərinin şəffaf, ədalətli və rəqabətli qaydada, demokratiya prinsipləri əsasında keçirildiyini təsdiq edir. Sonra mətbuat nümayəndələrinin sualları cavablandırılıb.

ICAPP nümayəndə heyətinin Kambocaya səfəri iyulun 24-də başa çatıb.

# BMT-nin rezident əlaqələndiricisi işğaldan azad olunmuş ərazilərdəki yenidənqurma işləri barədə məlumatlandırılıb





İyulun 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycan Respublikasında rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, o cümlədən Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası ilə bağlı vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov cari ilin sentyabr ayında keçiriləcək BMT Baş Assambleyası çərçivəsində sentyabrın 18-19-da təşkil olunacaq DİM Sammitinin dayanıqlı inkişaf gündəliyinin icrasının mövcud vəziyyətinin təhlili baxımından əhəmiyyətini qeyd edib. Qarşı tərəf milli səviyyədə DİM-ə nail olunması məqsədilə görülən işlər, ölkəmiz üçün əhəmiyyət kəsb edən məqsəd və hədəflərə çatmaq məqsədilə yaradılan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyəti barədə ətraflı məlumatlandırılıb.

Nazir postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarına əsaslanan yenidənqurma işləri, "yaşıl enerji" zonasının yaradılması istiqamətində atılan addımlardan bəhs edib. Ermənistan tərəfindən hərbi-siyasi təxribatların və mina təhdidinin davam etdirilməsinin sülh səylərinə xələl gətirdiyi bildirilib. Ermənistanın işğalı nəticəsində didərgin düşmüş məcburi köçkünlərimizin qayıdış prosesi və aparılan yenidənqurma işləri baxımından minatəmizləmə fəaliyyətinin vacibliyi və minatəmizləmənin DİM-dən biri olması təşəbbüsünün əhəmiyyəti vurğulanıb.

Rezident əlaqələndirici Vladanka Andreyeva Azərbaycan tərəfindən DİM-in təşviqi istiqamətində görülən işlərin əhəmiyyətli olduğunu vurğulayıb. Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığından məmnunluq ifadə olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rusiyaya işgüzar səfərə yola düşüb



İyulun 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində iyulun 25-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli görüşün, eləcə də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında ikitərəfli Saziş" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub.

# Bakıda Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 96-cı ildönümü qeyd edilib





İyulun 24-də Bakıda Çin Xalq Azadlıq Ordusunun yaradılmasının 96-cı ildönümü qeyd olunub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Çinin Dövlət himnləri səsləndirilib. Tədbirdə çıxış edən Çinin Azərbaycandakı hərbi attaşesi Van Ley Çin ordusunun yaranmasından, onun möhkəmləndirilməsi istiqamətində dövlətin gördüyü işlərdən danışıb. Bildirib ki, Çin Xalq Azadlıq Ordusu Çin Kommunist Partiyasının rəhbərliyi altında milli müstəqillik və xalqın azadlığı uğrunda mühüm töhfələr verib, unudulmaz hünər və şücaət göstərib, regionda və bütün planetdə sülhün və inkişafın qorunmasında önəmli qüvvəyə çevrilib.

Azərbaycan-Çin münasibətlərinə toxunan Van Ley qeyd edib ki, iki ölkə arasındakı tarix çox uzaq keçmişə söykənir: "İki min ildən çox əvvəl iki ölkənin xalqlarını qədim İpək yolu birləşdirib, diplomatik münasibətlərin qurulmasından keçən 30 il ərzində Çin ilə Azərbaycan arasında hərbi əlaqələr dövlət başçılarının rəhbərliyi sayəsində planlı şəkildə inkişaf edib. Beləliklə, hər iki ölkənin iştirak etdiyi regional və beynəlxalq əməkdaşlıq daha da sıxlaşır".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov bildirib ki, iki ölkə arasındakı yaxın dostluq münasibətləri gələcəkdə daha da genişlənəcək.

Tədbir bədii hissə ilə davam edib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

İyulun 24-ü baş prokuror Kamran Əliyev Tovuz Rayon Prokurorluğunun inzibati binasında Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Qəbulda iştirak edən 27 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin baş prokuror Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

*AZƏRTAC*

# Hərbi hissənin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib



Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin yaradılmasının ildönümü münasibətilə tədbir keçirilib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Əlamətdar gün münasibətilə müdafiə nazirinin təbriki şəxsi heyətə çatdırılıb. Çıxış edənlər hərbi hissənin yaranma tarixindən, Vətən müharibəsində keçdiyi döyüş yolundan və qarşısında duran vəzifələrdən danışıblar.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində ordumuzun döyüş qabiliyyətinin daha da artırıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, dövlət başçısının diqqət və qayğısı nəticəsində azad edilmiş ərazilərdə yerləşən bölmələrin hərtərəfli təminatı, qoşun xidmətinin təşkili və sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün mühüm addımlar atılır.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

Tədbirin bədii hissəsində vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri təqdim olunub.

# ANAMA: "Ötən həftə 227 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra edilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, iyulun 17-dən 22-dək Tərtər, Ağdam, Laçın, Xocavənd, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 28, tank əleyhinə 15 mina və 68 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ötən həftə ərzində 227,23 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




# Bu ilin 6 ayında əmək müqavilələrinin sayı artaraq 1 milyon 765 minə çatıb




Məşğulluq imkanlarının artırılmasına, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn kompleks tədbirlər nəticəsində əmək müqavilələrinin sayında artım davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu ilin 6 ayında ölkəmizdə əmək müqavilələrinin sayı ilin əvvəlinə nisbətən 1 faiz və ya 18,5 min müqavilə artaraq 1 milyon 765 minə çatıb.

Aparılan əməkhaqqı islahatları və əmək müqavilələrinin sayında artım əməkhaqqı fondunun da artması ilə nəticələnib. 2023-cü ilin yanvar-iyun aylarında əməkhaqqı fondunda daha 10 faiz artım qeydə alınıb.

Ümumilikdə son 5 ildə əmək müqavilələrinin sayında 35 faiz, əməkhaqqı fondunda 2,5 dəfə artım baş verib.

# Qarabağ və Şərqi Zəngəzurda səyyar ədliyyə xidmətləri təşkil edilib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad edilmiş torpaqlarımızda daimi məskunlaşmanın təmin olunması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən müasir innovasiyalar tətbiq olunmaqla hüquqi xidmətlərin göstərilməsi davam etdirilir.

Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 22-23-də nazirlik tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı olan - Şuşa şəhərində, habelə Zəngilan və Laçın rayonlarında yaşayan əhaliyə, genişmiqyaslı yenidənqurma işlərinə cəlb olunan işçilərə və bu ərazilərdə xidmət göstərən hərbçilərə, digər peşə sahiblərinə notariat hərəkətləri, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı nazirliyin mobil tətbiqləri vasitəsilə əlavə sənəd tələb olunmadan elektron informasiya resursları əsasında ədliyyə xidmətləri göstərilib.

Səyyar qəbullar zamanı həmçinin vətəndaşlara hüquqi məsləhətlər verilib, elektron və mobil ədliyyə xidmətlərindən istifadə imkanları diqqətə çatdırılıb, müvafiq bukletlər paylanılaraq onları maraqlandıran suallar cavablandırılıb.

Vətəndaşlarımız onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidentinə minnətdarlıqlarını bildirərək yerlərdə belə xidmətlərin təşkilini rəğbətlə qarşılayıblar.

SHUSHA GLOBAL MEDIA FORUM

# I Şuşa Qlobal Media Forumu

## Dezinformasiya və feyk xəbərlərlə mübarizə üsulları müzakirə edilib

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Forumu üçüncü gündə panel müzakirələrlə davam edib.



AZƏRTAC xəbər verir ki, forumun "Mediada investisiya və istehlak tendensiyaları" adlı sessiyasında ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media Proqramının direktoru Şəfəq Mehrəliyevanın moderatorluğu ilə yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk xəbərlərlə mübarizə üsulları) müzakirə olunub.

Sessiyada çıxış edən Böyük Britaniyanın PA Media Qrupunun Baş icraçı direktoru **Klayv Marşal** iyirmi il əvvəl qəzet satışının azaldığını bildirərək deyib: "Biz ümid edirdik ki, ovaxtkı gənclər yaşlanacaq və qəzetləri alacaqlar. Amma indi baxırıq ki, onlar bu gün o qəzetləri almırlar. Gənclər onlara maraqlı gəlməyən məsələlərdən imtina edirlər. Buna görə də onların nə istədiyini nəzərə almaq lazımdır".

Yalnız bir platformanın istifadəsinin kifayət olmadığını diqqətə çatdıran "DigiTips" şirkətinin təsisçisi və baş icraçı direktoru **Matthias Lüfkens** bildirib: "Biz auditoriyanı mütləq nəzərə almalı, tviter, tiktok və digər sosial şəbəkə hesablarının hamısında fəal olmalıyıq. Davos illik görüşündə xəbərlərlə bağlı bildirmişdim ki, yutub platformasında yerləşək. Mənə dedilər ki, xeyr, o platformanı uşaqlar izləyir. Daha sonra tiktoku təqdim etdilər ki, orada daha aktiv ola bilərik. Demək istədiyim odur ki, auditoriya nəyi necə istəyirsə, biz o istiqamətdə hərəkət etməliyik".

Müdafiə analitiki **Oubai Şahbandar** çıxışında vurğulayıb ki, oxucular, izləyicilər qarşısında əsas məqsədləri reallığı onlara çatdırmaqdır. Hadisə yerindən dəqiq, operativ, qərəzsiz məlumatların izləyiciyə çatdırılması əsas vəzifədir".

Qarabağa gəlmələrinin əsas səbəbinin buradakı vəziyyəti dünyaya çatdırmaq olduğunu deyən Oubai Şahbandar əlavə edib: "Hadisələri olduğu kimi görərək reallığı ictimaiyyətə çatdırmaq ən vacib məsələmizdir. Biz dünən üç il əvvəl baş verən müharibə yerlərində olduq. Həmin ərazilərdə reportaj hazırlayaraq şərhlərimizi bildirdik, gördüklərimizi ictimaiyyətə çatdırmağa çalışdıq. Dünyada bəzilərinin heç xəbəri yox idi ki, Azərbaycan, Şuşa haradır? Orada nə baş verib? Bütün bunları dünən bu ərazilərdə çəkdiyimiz videoreportaj sayəsində biz də öz növbəmizdə beynəlxalq ictimaiyyətə çatdırdıq".

Gürcüstanın İctimai Televiziyasının Baş direktoru **Tinatin Berdzenişvili** isə deyib: "Qürur duyuruq ki, işimizi müstəqil şəkildə qururuq. Biz görürük ki, bütün Qərb mediası daha konstruktiv olmağa, ictimaiyyət üçün həll yolları tapmağa çalışır. Çalışmalıyıq ki, qərəzsiz, obyektiv olaq. İctimaiyyətin problemləri üçün həll yolları axtarıb tapmaq istiqamətində irəliləməliyik".

Yeni nəslin daha qərəzsiz mediaya ehtiyacının olduğunu söyləyən T.Berdzenişvili vurğulayıb: "Rəqəmsal dünyada bizim vəzifəmiz bu imkanları ictimaiyyətə təqdim etməkdir. Biz bilmirik ki, gələcək necə olacaq. Buna görə də çağırışlara çevik reaksiya verməliyik. Biz həmçinin təkcə xəbərlərə fokuslanmamalı, ictimaiyyətin istəyini də nəzərə alaraq iş görməliyik".

Sessiyada iştirakçılar həmçinin media məhsullarının istehsalı və istehlakı ilə bağlı dəyişən trendlər, mediada investisiya məsələləri, media savadlılığının peşəkar medianın inkişafında rolu, yeni mediada dəyər zəncirinin yaradılması və biznes modellərinin inkişafı ilə bağlı fikir mübadiləsi aparıb, qonaqların suallarını cavablandırıblar.

Xatırladaq ki, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən forumda yerli və xarici media nümayəndələri, eyni zamanda ekspertlər iştirak ediblər.

I Şuşa Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edir.

## Bakıda "Türk Dünyası" media platforması ofisinin açılışı olub

İyulun 24-də Trend Beynəlxalq İnformasiya Agentliyi (BİA) və Türkiyənin "Albayrak" Media Qrupunun ortaq layihəsi olan "Türk Dünyası" (Turkic.World) media platforması ofisinin açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Trend BİA-nın baş direktorunun müavini Rufiz Hafizoğlu "Albayrak" Media Qrupu ilə Trend İnformasiya Agentliyinin 2021-ci ildə ortaq media platformasının açılması üçün razılığa gəldiklərini bildirərək deyib: "Bu platforma artıq iki ildir Azərbaycanda fəaliyyət göstərir. Digər türkdilli ölkələrin bu platformaya qatılması və mərkəzin məhz Bakıda olması qürurvericidir. Bu platformada qardaş Qazaxıstan və Qırğızıstanın dövlət xəbər agentlikləri, eləcə də Türkiyənin "Albayrak" Media Qrupu yer alıb".

"Albayrak" Media Qrupunun rəhbəri Ömər Karaca çıxışında qeyd edib ki, ortaq media platforması ofisinin açılışı türk dövlətləri arasında münasibətlərin gələcək inkişafının başlanğıcıdır.

"Şuşada keçirilən Qlobal Media Forumunda 50-yə yaxın ölkədən gələn media nümayəndələri ilə bir sıra məsələləri müzakirə etdik. Belə bir foruma evsahibliyi edən Azərbaycana təşəkkürümüzü bildiririk. İki il əvvəl Trend İnformasiya Agentliyi ilə birgə "Turkic.World" layihəsinin önəmli tərəfdaşı olduq. Bu illər ərzində ortaq layihəmiz böyüdü və inkişaf etdi. Hazırda Bakıda ofisimizin açılışını qeyd edirik. Ümidvarıq ki, gələcək illərdə fərqli yerlərdə daha böyük ofislərimizi açaraq türk dövlətləri ilə münasibətlərimizi bütün sahələrdə inkişaf etdirəcəyik", - deyə Ö.Karaca diqqətə çatdırıb.

Prezident Administrasiyasının Kommunikasiya siyasəti sektorunun müdiri Cavid Musayev çıxışında vurğulayıb ki, iki gün əvvəl Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Qlobal Media Forumu keçirilib. Bu Media Forumun əlamətdar hadisələrindən biri o oldu ki, Prezident İlham Əliyev tədbirdə çıxış edərək xarici media nümayəndələrinin suallarını cavablandırdı. Bu, Azərbaycanda mediaya, jurnalistikaya dövlət səviyyəsində verilən dəyərdir. O, bugünkü tədbirin Azərbaycan-Türkiyə əməkdaşlığının bariz nümunəsi olduğunu qeyd edib.

Sonra çıxış edən Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel bildirib ki, bu platforma türk dövlətlərində baş verənləri hadisələrin beynəlxalq ictimaiyyətə çatdırılmasına töhfəsini verəcək. Eyni zamanda bu ortaq platforma türk dünyası dövlətləri arasında münasibətlərin inkişafı üçün faydalı olacaq.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı çıxışında Azərbaycan ilə Türkiyə arasında media sahəsində əməkdaşlığın gözəl bir nümunəsinə şahidlik etdiklərini vurğulayıb. "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Türk Dövlətləri Təşkilatının hər sahədə güclənməsi üçün atılan addımların bu gün nəticəsini görürük. Xüsusilə İkinci Qarabağ müharibəsindən sonra reallıqların dünyaya çatdırılmasında türk mediasının nə qədər önəmli olduğunu gördük. Türk dövlətləri arasında həm əməkdaşlığın, həm də bu coğrafiyadakı hadisələrin dünyaya doğru-düzgün çatdırılmasında bu ofisin mühüm xidmətlərinin olacağına inanıram", - deyə diplomat vurğulayıb.

Daha sonra tədbir iştirakçıları ofis yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, "Türk Dünyası" (Turkic.World) media platforması 2021-ci ildə Trend BİA və Türkyənin "Albayrak" Media Qrupunun əməkdaşlığı nəticəsində fəaliyyətə başlayıb.

Platforma 2021-cil ildə İstanbulda keçirilən Türk Şurasının Media Forumunda təqdim olunmaqla yanaşı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) təşkilatçılığı ilə 25-ci Beynəlxalq Biznes Forumunun (International Business Forum (IBF)) rəsmi media tərəfdaşı olub.

Eyni zamanda "Turkic.World" "TEKNOFEST-2022" aerokosmik və texnologiya festivalının rəsmi media tərəfdaşıdır.

Bununla yanaşı, bu media layihəsi İstanbul Ticarət Universiteti, Azərbaycan İlahiyyat İnstitutu və Türkiyənin İnsan Hüquqları, Azadlıqları və Humanitar Yardım Vəqfi (İHH) ilə də tərəfdaşlıq memorandumları imzalayıb.

## Forumda jurnalistlərin təhlükəsizliyi məsələləri mövzusunda sessiya keçirilib

### Bununla da forumun sessiyaları yekunlaşıb

İyulun 23-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə təşkil edilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumunun sonuncu - üçüncü sessiyası keçirilib.



AZƏRTAC xəbər verir ki, "TRT World"un aparıcısı Reagen Des Vignesin moderatorluğu ilə keçirilən "Təhlükəsizlik məsələləri" mövzusunda sessiyada jurnalistlərin təhlükəsizliyi məsələləri müzakirə olunub.

Sessiya iştirakçıları böhran vəziyyətlərinin kommunikasiya mexanizmlərinin təkmilləşdirilməsi, münaqişə zonalarında jurnalistlərin qarşılaşdığı təhlükə və çağırışlar barədə məlumatlılığın artırılması, peşəkar "münaqişə jurnalistikası"nın inkişafı və jurnalistlərin təhlükəsizliyinin qorunması məsələləri ətrafında müzakirələr aparıblar. Bildirilib ki, dünyada baş verən müxtəlif hadisələr fonunda qərəzsiz və faktlara əsaslanan xəbərlərin yayılması, eyni zamanda yanlış və çaşdırıcı məlumatların qarşısının alınması sağlam informasiya mühitinin yaranması üçün əsas şərtlərdəndir.

Rumıniyanın Milli İnformasiya Agentliyi - AGERPRES-in baş direktoru Klaudia-Victoria Nikolae deyib ki, jurnalist peşə fəaliyyətini maddiyyat qarşılığında qurmamalıdır. Çünki bu sahə bu məqsədlə ediləcək iş deyil. Məqsəd odur ki, qərəzsiz, doğru məlumatlar olduğu kimi oxuculara, izləyicilərə çatdırılsın.

Hədə-qorxularla bütün jurnalistlərin rastlaşdığını vurğulayan Klaudia-Victoria Nikolae əlavə edib: "Bəzən belə hallar yaşansa da, yenə də peşəyə sadiq qalmaq mütləqdir. Çünki bizim işimiz elədir ki, bu hallarla qarşılaşmaq təbiidir. Vəziyyət belə olsa da, biz ictimaiyyətə yenə də doğru xəbərləri çatdırmalıyıq".

Koreya Siyasi Elm Assosiasiyasının vitse-prezidenti professor Gi Vung Jung jurnalistlərin təhlükəsizliyini, qorunmasını ümumi məsələ adlandıraraq deyib ki, bunun üçün ilk növbədə cəmiyyətlərdə sağlam düşüncənin olması vacibdir. "Əgər cəmiyyət sağlam düşüncədə olarsa, həmin vaxt jurnalistlərin təhlükəsizliyi probleminin həlli istiqamətində irəliləyişə nail olmaq mümkündür", - deyən koreyalı professor I Şuşa Qlobal Media Forumunun keçirilməsinə görə Azərbaycana təşəkkürünü ifadə edib.

Milli Məclisin deputatı Nigar Arpadarai çıxışında zamanımızda gördüyümüz yeni tendensiyaların özü ilə birlikdə bir çox yeniliklər gətirsə də, bəzi təhlükələrə də yol açdığını söyləyib.

O bildirib ki, yeni dövr, rəqəmsallaşma, jurnalistika və jurnalistlər üçün fürsətlər yaratdığı kimi, yeni təhlükələr də yaradır. Sosial media, texnologiyalar, süni intellekt bir sıra gizli təhlükələri ehtiva edir, onlardan bəziləri söz azadlığına zərbə vura bilər. İnternet üzərindən media işçilərinə ölüm təhdidləri, hədə-qorxu mesajları gəlir, onlar təqib olunurlar, jurnalistlərin şəxsi məlumatları onların əleyhinə istifadə olunur, belə tendensiyalar var.

"Qırx dörd günlük Qarabağ müharibəsi zamanı biz görürdük ki, Azərbaycan-Ermənistan münasibətləri haqqında həqiqəti söyləməyə cəsarət edən, Ermənistanın Azərbaycanın torpaqlarını işğal etməsi haqqında danışan istənilən xarici jurnalistə qarşı radikal erməni aktivistləri tərəfindən təhdidlər gəlirdi, onlara qarşı kampaniyalar təşkil olunurdu. Elə indi də bu mötəbər foruma qatılan jurnalistlər sosial mediada erməni istifadəçiləri tərəfindən çoxsaylı təhdid mesajları alırlar. Təəssüf ki, erməni diasporunun belə dağıdıcı, toksik münasibətini biz yaxşı bilirik", - deyə Nigar Arpadarai diqqətə çatdırıb.

Jurnalist peşəsinin olduqca təhlükəli olduğunu vurğulayan deputat bildirib: "Bizim iki jurnalistimiz Kəlbəcərdə öz peşə fəaliyyətini yerinə yetirərkən minaya düşərək həlak olub. Yəni jurnalistika bu qədər təhlükəli peşədir".

Sonra çıxış edən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) xüsusi müxbiri Vüqar Seyidov deyib: "Hər hansı bir jurnalistin yadda saxlamalı olduğu başlıca məsələ dürüstlük, peşəsinə sadiqlikdir. Jurnalist məlumatları ictimaiyyətə qərəzsiz və doğru şəkildə çatdırmalıdır. Ümumiyyətlə, ictimaiyyət, konkret olaraq xəbər istehlakçıları qərəzsiz, doğru informasiyaları almaq istəyirlər. Bu, hər bir jurnalistin işini icra edərkən yadda saxlamalı olduğu vacib amildir".

Daha sonra sual-cavab sessiyası olub. İştirakçıların suallarını cavablandıran çıxışçılar bildiriblər ki, jurnalistlərin peşə öhdəliklərini yerinə yetirmələri və cəmiyyətə xidmət etmələri üçün media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi son dövrlərin əsas məsələlərindəndir. Bu məqsədlə jurnalistlərin təhlükəsizliyinin qorunması ilə bağlı müxtəlif qabaqcıl və uğurlu strategiyaların araşdırılması və hazırlanması, zəruri avadanlıqlarla təmin edilmələri ciddi zərurətdir.

Bununla da I Şuşa Qlobal Media Forumunun sessiyaları yekunlaşıb.

Xatırladaq ki, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən I Şuşa Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılmışdı. Həmçinin forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edib.

## Əhməd İSMAYILOV: "Şuşa Forumunda Azərbaycan Prezidentinin iştirakı böyük əhəmiyyət daşıyırdı"

"Doğma Şuşamızda Qlobal Media Forumu keçirilir. Bu forumun ilk günündə Prezident İlham Əliyevin iştirakı bizim üçün çox böyük əhəmiyyət daşıyırdı. Forum iştirakçılar tərəfindən də böyük rəğbət və maraqla izlənildi. Üç saata yaxın vaxt ərzində 60-dan çox yerli jurnalistin, media subyekti rəhbərlərinin sualları cavablandırıldı. Azərbaycan Prezidenti çıxışında Azərbaycanda media sahəsində islahatların istiqamətlərini də müəyyən etmiş oldu".



AZƏRTAC xəbər verir ki, bu fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Forumunun yekunları ilə bağlı jurnalistlərə müsahibəsində ifadə edib. Onun sözlərinə görə, I Şuşa Qlobal Media Forumunun əsas məqsədi müasir mediada gedən proseslərin daha dəqiq izlənilməsi, müzakirə olunması, fikir mübadilələrinin aparılması idi.

Əhməd İsmayılov bütün forum iştirakçıları, Azərbaycanın mətbuat nümayəndələrinin rəhbərləri, media menecerləri adından Prezident İlham Əliyevə belə bir şərait yaratdığına görə dərin təşəkkürünü bildirib.

## Forumun məqsədi Azərbaycan mediasında həyata keçirilən prosesləri dünyada gedən proseslərə inteqrasiya etməkdir

Şuşa Forumunda rəqəmsal media mühitində transformasiya, media mühitinin müzakirələri və süni intellektin jurnalistikaya, media sahəsinə təsiri çox ciddi müzakirə olundu.

Çap mediası, ənənəvi media və yeni media arasındakı fərqlər və yeni media dövründə bizim ənənəvi mediamızın dünyadakı ənənəvi medianın rolu və bundan sonrakı fəaliyyət istiqamətləri üzrə dərin müzakirələr aparıldı. Eyni zamanda forum çərçivəsində media savadlılığının dezinformasiyaya qarşı mübarizə üsulu kimi əsas istiqamət olduğu vurğulandı və bununla bağlı media ekspertləri ilə təcrübə mübadiləsi həyata keçirildi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Forumunun yekunları ilə bağlı jurnalistlərə müsahibəsində söyləyib.

Onun sözlərinə görə, belə forumların keçirilməsinin əsas məqsədi məhz Azərbaycan mediasında, ictimaiyyətində də media savadlılığı sahəsində həyata keçirilən prosesləri dünyada gedən proseslərə inteqrasiya etmək və vahid şəkildə tətbiq etməkdir.

SHUSHA GLOBAL MEDIA FORUM

## I Şuşa Qlobal Media Forumu

# Prezident İlham Əliyevin forumdakı fikirləri beynəlxalq mətbuatın əsas gündəm mövzusuna çevrilib

**Şuşada keçirilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu və Prezident İlham Əliyevin açılış mərasimindəki çıxışı zamanı səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir. Xarici mətbuatın əsas gündəm mövzusuna çevrildiyi I Şuşa Qlobal Media Forumu ilə bağlı maraqlı analitik məlumatlar yayılır.**



ABŞ-nin "The Associated Press" agentliyi və "New York Insider" xəbər portalı I Şuşa Qlobal Media Forumunun keçirilməsinin məqsədi, Prezident İlham Əliyevin tədbirdəki çıxışının əsas məqamları ilə bağlı yazılar dərc ediblər. Məqalələrdə bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev forumdakı çıxışında əsas mövzulara, o cümlədən yeni media sahəsində irəliləyişlərə və Azərbaycanın regionda strateji əhəmiyyətinə toxunub.

Birləşmiş Krallığın "Daily Trends" qəzetinin dərc etdiyi "I Şuşa Qlobal Media Forumu: Dünyanın media liderləri arasında ilhamverici birlik" sərlövhəli xəbərdə bildirilib ki, tədbirin məqsədi qlobal media meyillərini təhlil etmək, milli imkanları gücləndirmək, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və media sektorunda 4-cü Sənaye İnqilabi dövründə təqdim olunan çağırışları və imkanları araşdırmaqdır. Xəbərdə Prezident İlham Əliyevin əsas mövzularla, o cümlədən yeni media sahəsində irəliləyişlər və Azərbaycanın regionda strateji əhəmiyyəti ilə bağlı fikirləri yer alıb.

Rumıniyanın nüfuzlu KİV-ləri, "AGERPRES" Milli Xəbər Agentliyi, "Ziare Live", "Agerpres", "news24hours" xəbər portallarında, "Ultima ora" qəzetində Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışından əsas məqamlar işıqlandırılıb. Məqalələrdə diqqətə çatdırılıb ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən forum çərçivəsində Prezident İlham Əliyev 49 ölkədən 120 media qurumunu təmsil edən qonaqlarla görüşüb. Azərbaycan Prezidenti Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsinin, davamlı sülhə nail olunmasının və təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayıb.

Pakistanın "DND" xəbər portalı da I Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi mühüm məsələlərə diqqət çəkib. Qeyd edilib ki, Prezident İlham Əliyev Şuşada xarici KİV nümayəndələri ilə üç saatdan çox çəkən səmimi söhbətində Azərbaycana müstəsna iqtisadi yüksəliş, diqqətəlayiq ictimai-siyasi sabitlik, nümunəvi müdafiə və strateji uğurlar gətirən siyasi, inzibati və xarici siyasət fəlsəfəsini bölüşüb.

Albaniyanın "Agjencia Telegrafike Shqiptare" nəşrinin yaydığı xəbərdə Prezident İlham Əliyevin forumda İkinci Qarabağ müharibəsindən sonrakı vəziyyətlə bağlı səsləndirdiyi fikirlər yer alıb. Xəbərdə diqqətə çatdırılıb ki, Prezident İkinci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycanın və Türkiyənin müttəfiqlik münasibətlərinin rəsmiləşdirilməsindən, məşhur Şuşa Bəyannaməsindən bəhs edib. Azərbaycan dövlət başçısının Prezident Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğu ilə bağlı fikirləri də diqqətə çatdırılıb.

Gürcüstanın "1tv.ge" saytında Prezident İlham Əliyevin I Şuşa Qlobal Media Forumunda Gürcüstan, Azərbaycan, Rumıniya və Macarıstan arasında Qara dənizdə strateji əhəmiyyətə malik sualtı elektrik kabelinin çəkilməsi haqqında imzalanmış sazişin uğurla həyata keçirilməsi, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, Cənubi Qafqazın regional inkişafı ilə bağlı fikirlərinə xüsusi yer verilib.

Hindistanın "BusinessLand" xəbər portalı yayımladığı materialda Prezident İlham Əliyevin üçsaatlıq iclasda sualları cavablandırarkən Qarabağ Zəfəri və postmüharibə dövrü ilə bağlı fikirlərinə diqqət çəkib.

I Şuşa Qlobal Media Forumu Moldova mətbuatının da gündəmində yer alıb. Belə ki, "Noi.md" və "Yam News" saytlarında yer alan yazılarda Prezident İlham Əliyevin regional inkişafın Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılı olması barədə fikrinə yer verilib: "Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir. Həm qlobal məsələlərdə və xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmli və vacibdir, o, sabitləşdirici rol oynayır. Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir və o rol həm Azərbaycanda, həm onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir".

Moldovanın "Noi", "Tribuna", "Ava" "Jurnal1" və digər xəbər portallarında rumın və rus dillərində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin xüsusilə Ermənistanla bağlı fikirlərinə önəm verilib. Azərbaycan Prezidentinin ölkəsinin Ermənistanla müharibə nəticəsində uzun illər çəkdiyi əziyyətlərdən sonra sabitliyə və inkişafa nail olmağa çalışdığını vurğulayıb. Azərbaycanın bölgədə barışıq ölkəsi olduğu qeyd edilib və bildirilib ki, Azərbaycan rəqabət məkanı deyil, əməkdaşlıq məkanıdır.

Özbəkistanın "Daryo" xəbər portalında isə Azərbaycan Prezidentinin Cənubi Qafqazın inkişafı üçün mühüm əhəmiyyət kəsb edən amillərlə bağlı fikirləri dərc edilib. Bu baxımdan dövlətimizin başçısının Azərbaycanın Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olması barədə fikri xüsusi vurğulanıb.

Misirin MENA Xəbər Agentliyinin saytında və nüfuzlu "Əl Əhram" qəzetində "Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin inkişafının prioritet məsələ olduğunu bildirib" sərlövhəli məqalə dərc edilib. Yazıda diqqətə çatdırılıb ki, I Şuşa Qlobal Media Forumunda iştirak edən dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistlərin suallarını cavablandıran Azərbaycanın dövlət başçısı uzun illər işğaldan əziyyət çəkən ölkəsinin sülhə və inkişafa nail olmaq istədiyini bildirib.

"Belbaladi" və "Əl Hərir" informasiya portallarında dərc olunan materiallarda qeyd edilib ki, forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev medianın insanların maarifləndirilməsi və onların problemlərinin həllində mühüm rol oynadığını söyləyib. Azərbaycanın dövlət başçısı, həmçinin ənənəvi media ilə yanaşı sosial medianın da mühüm rolunu qeyd edib.

Kanadanın "Digital Journal", Fransanın "France11", İspaniyanın "Informe Espana", Belarusun "SB-BY", eləcə də digər xarici KİV-lərdə yayımlanan materiallarda da qeyd edilib ki, I Şuşa Qlobal Media Forumunda mühüm qlobal və regional məsələlərə toxunulub. Bu mötəbər tədbirin açılış mərasimində Azərbaycan Prezidentinin iştirakı və fikirləri diqqət mərkəzində saxlanılıb.

Gürcüstanın geniş oxucu auditoriyasına malik netgazeti.ge portalında yayımlanan materiallarda Prezident İlham Əliyevin mətbuatın inkişafı, forumun əhəmiyyəti, qlobal enerji məsələləri, eləcə də sülh çağırışları barədə fikirləri yer alıb.

"Tabula.ge" portalının yaydığı materialda Qarabağda yerləşən Şuşa şəhərinin ölkənin mədəniyyət paytaxtı elan olunduğu, Ermənistanın Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığı xüsusi qeyd edilib.

Gürcüstanın İctimai televiziyasında (1tv.ge) Azərbaycan və gürcü dillərində yayımlanan materialda Prezident İlham Əliyevin beynəlxalq hüququn norma və prinsipləri barədə fikirlərindən bəhs olunub. Bildirilib ki, beynəlxalq hüququn fundamental prinsipləri var, lakin ölkələrin ərazi bütövlüyü pozulmamalıdır.

24news.ge portalında yayılan materialda isə Ermənistanın Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etməsi və artıq sülh sazişinin imzalanması mərhələsində olduğu bildirilir.

İnterpress.ge portalında Prezident İlham Əliyevin Brüssel formatı barədə fikirləri yer alıb. Bildirilib ki, Brüssel formatı Ermənistan və Azərbaycan liderlərinin təmas qurmaları üçün əlavə dəstəkverici mexanizmdir.

Aktual.ge portalında isə I Şuşa Qlobal Media Forumu, forumun əhəmiyyəti və burada müzakirə olunan məsələlər, eləcə də iştirakçılar barədə ətraflı məlumat verilib.

"TASS" Dövlət İnformasiya Agentliyi Prezident İlham Əliyevin yaxın üç il ərzində 150 mindən çox azərbaycanlının Qarabağa və Şərqi Zəngəzura qayıdacağı ilə bağlı bəyanatını yayıb. Agentliyin digər materialında isə bildirilib ki, Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasından sonra iki ölkə arasında münasibətlərin inkişafının kifayət qədər uğurlu olduğunu, sənədin maddələrinin yerinə yetirildiyini vurğulayıb.

"İzvestiya", "Arqumentı nedeli", "Moskovskiy komsomolets" qəzetləri də Azərbaycan Liderini I Şuşa Qlobal Media Forumunda çıxışına geniş yer ayırıblar. Materiallarda Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətləri, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada keçirilməsi planlaşdırılan görüşü, Rusiya ilə ABŞ arasında danışıqların Azərbaycanda başlanmasının mümkünlüyü barədə fikirləri yer alıb.

Məqalələrdə daha sonra yazılıb ki, Cənubi Qafqazda inkişaf, əsasən, Azərbaycanla Ermənistan arasında münasibətlərin yaxşılaşmasından asılıdır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Müzəffər Ali Baş Komandanın modern quruculuğu



**Zəfər günündən 8 gün və Ermənistanın kapitulyasiya aktını imzalamasından 6 gün keçəndən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura qalibiyyət səfəri etmiş, Füzulidə qonaq olmuş və cənnətməkan Cəbrayıldan Azərbaycan xalqını salamlamışdı. Həmin gün - 2020-ci il noyabrın 16-da qalib lider Füzuli-Şuşa avtomobil yolunun - Zəfər yolunun çəkilişinə göstəriş verməklə həm də rəmzi olaraq Böyük qayıdış yolunun uğurlu təməlini qoymuş, yüz minlərlə keçmiş məcburi köçkün vətəndaşımızın tezliklə bu yollarla torpaqlarına qovuşacaqlarının xoş ismarışını vermişdi.**

## İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda yüksəlişin ən mükəmməl modelini yaradır

Həmin əlamətdar tarixin üzərindən cəmi iki il yarım keçib və hazırda biz düşmənin 30 il ərzində çapıb-taladığı, viran qoyduğu yurdlarımızın necə abad məkana çevrildiyinə, hər bir bölgəmizin özünəməxsus təbii görkəminin, ruhunun saxlanılması ilə yenidən çağdaş formada dirçəldildiyinə şahidlik edirik.

Dövlət başçısı İlham Əliyevin şəxsi nəzarəti altında Qarabağ və Şərqi Zəngəzurda abad şəhərlər, kəndlər salınır...

Artıq Qarabağa da Şərqi Zəngəzura da Böyük qayıdış köçü yol alıb, Zəngilanın Ağalı, Tərtərin Talış kəndlərinin və Laçın şəhərinin sakinlərinin timsalında yurd nisgilindən qurtulan mindən çox vətəndaşımızın xoşbəxtliyini bölüşmüşük...

### Xocalıdan verilən "Qarabağ Azərbaycandır!" mesajı

Prezident İlham Əliyev Qarabağa və Şərqi Zəngəzura qayıdışı milli çağırışımız kimi xarakterizə edib. Buna görədir ki, Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilən ərazilərdə quruculuq və bərpa işlərinə start verilib. Qayıdışa sürətli hazırlıq görülən bu yerlərdə müasir infrastruktur layihələri həyata keçirilir, dəmir yolları, avtomobil yolları, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, elektrik enerjisi, su təchizatı və digər mühüm işlər görülür.

Prezident İlham Əliyev tərəfindən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməli qoyulub. Vətən müharibəsindən sonra dövlət başçısı işğaldan azad edilən ərazilərə 100-dən çox səfər gerçəkləşdirib və hər biri mühüm tarixi açılış, təməlqoyma ilə bol olan bu səfərlər sayəsində həmin ərazilərdə həyata keçirilən işlərlə daha yaxından və ətraflı tanış olmuşuq.

Elə iyulun 20-21-də də dövlət başçısı yolunu yenidən Qarabağ və Şərqi Zəngəzurdan saldı. Ayın 20-də tarixi yurdumuz Xocalının işğaldan azad edilən Çanaqçı və Sığnaq kəndlərində olan qalib lider İlham Əliyev elə bu cənnətməkan kəndlərdən bir daha düşmənlərimizə "Qarabağ Azərbaycandır!" mesajını verdi, əzəli sahiblərinin bu torpaqlara əbədi qayıtdıqlarını çatdırdı.

### Daşaltıda yeni təməllər qoyuldu

Prezident İlham Əliyevin budəfəki Qarabağ səfəri də əlamətdar hadisələrlə yadda qaldı. İyulun 20-də Füzuli rayonunda olan dövlət başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış oldu.

Prezidentə məlumat verildi ki, işğaldan azad olunmuş ərazilərin bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə isə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

Prezident İlham Əliyev iyulun 21-də Şuşa rayonunun Daşaltı kəndinin yenidən qurulması ilə bağlı görüləcək işlərlə tanış oldu, burada özəl investisiya hesabına inşa ediləcək yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoydu.

Dövlət başçısına məlumat verildi ki, kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur.

Qeyd olundu ki, görüləcək işlər 65 hektara yaxın ərazini əhatə edir. Buraya 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev - ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə həmçinin məscid, bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, hotel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır.

Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda hotel və istirahət mərkəzi tikiləcək.

### Şuşanın təhsil və səhiyyə infrastrukturu da uğurla qurulur

Qarabağın və Şərqi Zəngəzurun təhsil infrastrukturu da uğurla bərpa olunur. Bu baxımdan Şuşada 1 saylı tam orta məktəb binasının inşası xüsusi əhəmiyyət daşıyır. Şuşaya səfəri çərçivəsində dövlət başçısı Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə də tanış oldu.

Məktəbin 960 şagird yerlik üçmərtəbəli binasında tədrisin təşkili üçün hər cür şərait yaradılır. Məktəbdə hər biri 24 nəfərlik 40 sinif otağı, 2 fizika, 2 kimya, 2 biologiya, 2 texnologiya, 2 informatika otağı, 1 STEAM mərkəzi, kitabxana və oxu zalı, gənclərin ibtidai hərbi hazırlığı, rəssamlıq və musiqi kabinetləri, tibb otağı, müayinə otağı, yeməkxana, akt və idman zalları, inzibati heyət üçün iş otaqları olacaq. Məktəb üçün ayrılan bir hektar ərazidə futbol meydançası, transformator, fərdi qazanxana, su hovuzu və digər zəruri yardımçı binaların inşası artıq yekunlaşıb.

İşğaldan azad edilən ərazilərdə tibb və səhiyyə xidmətlərinin təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşa Şəhər Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatının və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir.

Xatırladaq ki, 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşa Şəhər Xəstəxanasının təməli qoyulub.

Cari il iyulun 21-də Prezident İlham Əliyev 90 çarpayılıq Şuşa Şəhər Xəstəxanasının binasında aparılan tikinti işlərinin gedişi ilə də tanış oldu. 3,7 hektara yaxın sahədə inşa edilən xəstəxana binasının tikinti işlərinə bu ilin yanvarında başlanılıb. Xəstəxana binası 4-ü dördmərtəbəli, 2-si isə birmərtəbəli olmaqla 6 korpusdan ibarətdir. Binanın zirzəmi hissəsindən stasionar tibbi xidmət və sığınacaq kimi istifadə olunacaq, zərurət yarandıqda hərbi hospital kimi fəaliyyət göstərəcək. Xəstəxananın Təcili Tibbi Yardım Stansiyası müasir standartlara cavab verən və böyük vəsait tələb edən tibbi avadanlıqlar - 1.5 TL maqnit-rezonans tomoqrafiya və 32 kəsikli kompüter tomoqrafiya aparatları ilə təchiz olunacaq. Stansiyada hər növbədə dörd briqada fəaliyyət göstərəcək.

Şuşa Şəhər Xəstəxanasının ərazisində eyni zamanda Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunacaq.

### "Xoşbəxtlik, bax, budur!"

İyulun 21-də Şuşada keçirilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumunun açılış mərasimində yerli və beynəlxalq media nümayəndələrinin suallarını cavablandıran Prezident İlham Əliyev bildirdi ki, Böyük qayıdış proqramına əsasən 30-dan çox şəhər və kəndin baş planı təsdiqlənib, bir çox kəndlərin təməli qoyulub. Həm Qarabağ, həm Şərqi Zəngəzur rayonları üzrə təxminən növbəti üç il ərzində 150 mindən çox insan doğma yurdlarına qaytarılacaq. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Göründüyü kimi, keçmiş məcburi köçkünlərin dədə-baba torpaqlarına təhlükəsiz, ləyaqətli və sürətli qayıdışı üçün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda dünyada bərabərinə rastlanmayan tikinti və bərpa işləri aparır, nəhəng layihələr həyata keçirir.

Qalib lider İlham Əliyevin şəxsi səy və əzmi sayəsində Qarabağ və Şərqi Zəngəzurda ard-arda yaşanan quruculuq zəfərləri isə tutduğu vəzifədən, sosial statusundan asılı olmayaraq, Azərbaycan xalqının hər bir üzvünə, qürur və xoşbəxtlik hissi bəxş edir.

Necə ki bununla bağlı kövrək hisslərini dövlət başçısı İlham Əliyev Şuşada keçirilən mötəbər beynəlxalq forumun tribunasından bir daha bəyan etdi: "Hər dəfə yeni bir inkişaf layihəsini görəndə, yaxud da ki, təməl mərasimində iştirak edəndə sanki, necə deyərlər, damarıma qan vurulur, yəni o qədər müsbət enerji verir ki, bu müsbət mənəvi enerji insanı fiziki cəhətdən də gücləndirir...

... Xoşbəxtlik nədir, bir çoxları özünə sual verir. Amma hər dəfə bu inkişafı görəndə mən özümə deyirəm, yəqin ki, xoşbəxtlik, bax, budur!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur dirçəlir, Böyük qayıdış sürətlənir

## Tezliklə işğaldan azad edilmiş bütün ərazilərdə insanlar yaşayıb yaradacaqlar

44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsindən sonra qarşıda duran prioritet məsələ 30 il ərzində işğalda olmuş, ermənilər tərəfindən daşı daş üstündə qalmayan ərazilərimizin yenidən qurulması və bərpasıdır.

İşğaldan azad olunmuş ərazilərin qısa zamanda bərpası keçmiş məcburi köçkünlərin tezliklə öz dədə-baba yurdlarına, əzəli torpaqlarına qayıtmasına hesablanıb. Buna görədir ki, erməni tapdağından azad edilmiş bütün rayonlarda Prezident İlham Əliyevin birbaşa nəzarəti altında sürətli quruculuq işləri görülür.

Dövlət başçısı mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfərlər edərək yeni-yeni layihələrin əsasını qoyur, açılış mərasimlərində iştirak edir, görülmüş işlərlə yerində tanış olur. Hər iki iqtisadi rayonda aparılan geniş tikinti-quruculuq işlərinin nəticəsidir ki, həm Şərqi Zəngəzura, həm də Qarabağa Böyük qayıdış artıq başlayıb.

Ötən ilin iyul ayında Zəngilanın Ağalı kəndindən başlayan köç hazırda Laçın şəhəri ilə davam edir. Bu günə qədər isə Ağalı, Tərtərin Talış kəndi və Laçın şəhərində ümumilikdə 1000-dən çox sakin məskunlaşıb. Proses isə davam etməkdədir.

Təbii ki, torpaqlarımızın işğaldan azad olunmasından sonra uzun illər ərzində barbarlar tərəfindən viran qoyulan ərazilərin yenidən qurulması və bərpasının nə zaman başa çatacağı dünya ictimaiyyəti üçün də maraqlıdır. Elə iyulun 21-də Şuşada keçirilən "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident İlham Əliyevə ünvanlanan suallardan biri də bu istiqamətdə oldu.

Dövlət başçısı "Əl-Cəzirə" telekanalının jurnalistinin "Qarabağın yenidən qurulması nə vaxt bitəcək və nə qədər çəkəcək?" sualını belə cavablandırdı: "Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi mərhələlərə bölünüb. Böyük qayıdış proqramı qəbul edilib. Proqramın icrası üçün maliyyə resursları səfərbər edilib. Bu günə qədər infrastruktur və şəhərsalma məqsədləri üçün ilin sonuna qədər nəzərdə tutulan xərclər təqribən 7 milyard ABŞ dollarına bərabər olacaq. Yəni bu ancaq başlanğıcdır. Mərhələlərə bölünən bu proqramın icrasının da nə qədər çəkəcəyini demək çətindir. Çünki birinci mərhələdə bizim əsas vəzifəmiz 8 şəhəri və 100 kəndi yenidən qurmaqdır. Artıq bir neçə yaşayış məntəqəsində insanlar məskunlaşıblar - Zəngilan rayonunun Ağalı kəndində, Tərtər rayonunun Talış kəndində və Laçın şəhərində".

Xatırladaq ki, həm 2021-ci, həm də 2022-ci ildə işğaldan azad olunmuş ərazilərin bərpasına 2.2 milyard manat vəsait ayrılıb. Ötən il isə büdcəyə daxilolmalar nəticəsində dəyişiklik ediləndən sonra yenidənqurma işlərinə əlavə 470 milyon manat vəsait ayrılmışdı. 2023-cü il üçün isə Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərə ilkin mərhələdə 3 milyard manat ayrılsa da, dürüstləşmədən sonra daha 2 milyard 260 milyon manat vəsait yönəldilib.

Məskunlaşma prosesinin tədricən getdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, işğaldan əziyyət çəkən 1 milyon insan öz dədə-baba torpaqlarına qayıtmalıdır: "Onu da bildirməliyəm, biz bərpa işlərinə start verməzdən əvvəl keçmiş məcburi köçkünlər arasında qeyri-rəsmi sorğu keçirdik ki, onlar öz dədə-baba torpaqlarına qayıtmaq fikrindədirlər, yoxsa yox. Sevindirici hal ondan ibarətdir ki, məcburi köçkünlərin mütləq əksəriyyəti müsbət cavab verib. Bu da təbii ki, görüləcək işin həcmini daha da böyüdür və hesab edirəm ki, mərhələli yollarla şəhərlərin bərpası növbəti beş il ərzində mümkün olacaq".

### Böyük qayıdış proqramı sürətlə icra edilir

Daha çox keçmiş məcburi köçkünün qısa zamanda öz yurduna qayıtması üçün "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair Dövlət Proqramı"ı qəbul olunub. Cəmi 8 aya yenidən qurulan Laçın şəhərində 700 ailə üçün yaradılan şərait də bunun bariz nümunəsidir.

Mayın 27-dən etibarən Laçına qayıdış başlayıb və indiyədək ümumilikdə 503 nəfərin şəhərdə məskunlaşması təmin edilib. Eyni zamanda şəhərdəki əhalinin məşğulluğunun təmin olunması üçün işlərə başlanılıb. Sentyabrın 15-dək məktəb, uşaq bağçası, xəstəxana və digər sosial obyektlər də istifadəyə veriləcək.

Dövlət başçısı forumda sualı cavablandırarkən növbəti beş il ərzində azad edilmiş bütün şəhərlərdə artıq insanların yaşayacağına əminliyini ifadə etdi. Ölkə rəhbəri vurğuladı ki, şəhərlərin inkişaf planı daha genişmiqyaslıdır: "Çünki məsələn, əgər Ağdam şəhərini götürsək, işğaldan əvvəlki dövrdə bu şəhərdə təqribən 40, bəlkə də 50 min insan yaşayırdı. Bizim baş planımıza görə Ağdam şəhərində 100 minə yaxın insan yaşayacaq. Təbii ki, bütün bunlar mərhələli yollarla ediləcək. Çünki vəsait o zaman xərclənməlidir ki, artıq insanlar oraya getməyə hazır olsunlar".

I Şuşa Qlobal Media Forumunda İlham Əliyevə ünvanlanan suallar arasında "Növbəti 10 ildə Şuşanı necə görmək istəyirsiniz?" sualı da xüsusi diqqət çəkdi. Ölkə rəhbəri cavabında bildirdi ki, Şuşanın bərpasına başlanılıb, bir müddət öncə baş planı təsdiq edilib və artıq ilk yaşayış layihəsi icra olunur.

Dövlət başçısı qeyd etdi ki, həmin layihələr çərçivəsində Şuşa sakinləri yenidən evlərinə qayıdacaqlar. "Bununla yanaşı, artıq qeyd etdiyim kimi, Şuşa Prezidentin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilibdir və bizim gözləntimiz odur ki, dünyadan çoxsaylı qonaqlarımız olacaqdır, insan axını olacaqdır. Çünki bu, nadir, misilsiz bir məkandır. Burada tarix, mədəniyyət, memarlıq və iqlim vəhdət təşkil edir. Bu, bizim böyük sərvətimizdir. Əlbəttə ki, bu şəhər qaya üzərində qurulubdur,



qədim şəhərdir və bu, həqiqətən də, Qafqazın incisidir və Qarabağın tacıdır. Biz hazırda fəal sürətdə tarixi memarlıq abidələrini bərpa edirik. Üç məscidimiz yenidən qurulubdur. Biri bərpa olunub, digərləri yenidən inşa edilib, çünki onlar dağıdılmışdı. Bizim bərpa etdiyimiz ilk tarix-memarlıq abidəsi dahi şairimiz və Qarabağ xanlığının vəziri Vaqifin məqbərəsi idi. O da işğal dövründə ermənilər tərəfindən dağıdılmışdı. Biz onu yenidən qurduq, bərpa etdik. Biz bulaqları bərpa etdik. Artıq beş bulaq su ilə doludur".

Mədəniyyət paytaxtımızda görülən işlərdən danışan Prezident 3-4 il ərzində Şuşanın təkcə Azərbaycanın və Qafqazın deyil, dünyanın ən gözəl şəhəri olacağını vurğuladı.

Baş plan çərçivəsində Şuşa şəhərinin bütün infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Sentyabr ayında min şagird yerlik məktəbin açılışı gözlənilir, həmçinin ilin sonuna qədər 90 çarpayılıq xəstəxana istifadəyə veriləcək.

Bununla yanaşı, digər tarixi və mədəniyyət abidələri, mehmanxanalar bərpa edilir və ya yeniləri tikilir. Forum çərçivəsində Şuşaya səfər edən ölkə rəhbəri Daşaltı kəndində də yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoydu.

Təbii ki, işlər ancaq Laçın və Şuşa şəhəri ilə məhdudlaşmır, işğaldan azad edilmiş bütün şəhər və kəndlərdə geniş quruculuq işləri aparılır. Sürətli bərpa işləri isə insanların mərhələli şəkildə dədə-baba torpaqlarına qayıtmasına imkan verəcək. İlin sonuna kimi Laçının Zabux və Sus kəndlərinə də qayıdış gözlənilir. Ümumilikdə isə bu il və növbəti ildə Laçın rayonunda 10 minə yaxın keçmiş məcburi köçkünün daimi məskunlaşması nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurda görülən bütün tikinti, quruculuq işləri dövlətin prioritet istiqaməti olaraq keçmiş məcburi köçkünlərin qısa zamanda əzəli torpaqlarına qayıdışına hesablanıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Dəmir yumruğ"un yaratdığı reallıq

## Azərbaycan həqiqətləri dünyaya I Şuşa Qlobal Media Forumundan çatdırıldı







**Prezident İlham Əliyevin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan milli mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən I Şuşa Qlobal Media Forumu başa çatıb.**

Forum çərçivəsində dövlət başçımız tərəfindən Azərbaycan xalqına və dünya ictimaiyyətinə bir sıra vacib mesajlar ötürülüb. Həmçinin media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə aktuallıq kəsb edən məsələlər müzakirə edilib. Bu forum Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm hadisədir.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Şuşa forumu dünya mediasının inkişafına əhəmiyyətli töhfə verəcək

Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib ki, Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa şəhəri növbəti dəfə mötəbər beynəlxalq tədbirə - "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumuna evsahibliyi etdi və öz əzəmətini, kimliyini, mənliyini bir daha dünyaya göstərdi. Fəxarətlə deyə bilərik ki, Şuşa artıq dünyada həm də beynəlxalq tədbirlərin keçirildiyi, qlobal xarakterli müzakirələrin aparıldığı məkan kimi tanınır. Foruma 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun qatılması tədbirin əhəmiyyətinin və ona olan marağın təzahürüdür.

Deputat qeyd edib ki, bu, həm də Azərbaycan həqiqətlərinin, reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması baxımından xeyli önəmli hadisədir: "Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş Şərqi Zəngəzura və Qarabağa gələn xarici media nümayəndələri uzun illər ermənilərin orada törətdikləri bütün vəhşilikləri, dağıdılmış şəhərləri, kəndləri öz gözləri ilə görür, real vəziyyəti dəqiq və dürüst şəkildə dünyaya çatırırlar. Bu da, sözsüz ki, ermənilərin və onun havadarlarının bütün yalanlarını, bölgə ilə bağlı dezinformasiyalarını alt-üst edir".

Səttar Möhbalıyevin sözlərinə görə, dövlət başçısı İlham Əliyevin forumun açılış mərasimində iştirak etməsi, yerli və xarici jurnalistlərin suallarını cavablandırması bir daha göstərdi ki, ölkəmizin rəhbəri hər zaman mətbuata açıqdır, bu sahənin inkişafına hərtərəfli dəstək olur: "Əbəs yerə deyil ki, Azərbaycan mətbuatı hərtərəfli inkişaf edib, ölkəmizdə 5 mindən çox media subyekti fəaliyyət göstərir. KİV-lərə birdəfəlik yardımların verilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər, həmçinin media mənsublarına fəxri adların verilməsi haqqında sərəncamlar mətbuat işçilərinə göstərilən qayğının bir hissəsidir. Eləcə də jurnalistlərin mənzillə təmin olunması, qəzet və jurnalların nəşriyyata olan borclarının silinməsi ölkəmizdə mətbuata olan dəstəyin bariz nümunəsidir".

Deputat vurğulayıb ki, forumda jurnalistlərin müxtəlif məzmunlu suallarına özünün dərin biliyi, geniş zəkası, dəmir məntiqi və tutarlı arqumentləri ilə cavab verən Prezident İlham Əliyev istər bölgədə, istər regionda, istərsə də dünyada baş verən prosesləri hərtərəfli şərh etdi, Azərbaycanın dünyada yerini və rolunu bir daha göstərdi. Sübut etdi ki, Azərbaycan dünya üçün son dərəcə vacib ölkə və etibarlı tərəfdaşdır, həmçinin sülh və sabitliyin tərəfdarıdır. Təbii ki, ölkəmiz bütün bu uğurlara Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində imza atıb. Məhz onun rəhbərliyi ilə yenilməz ordumuz 30 illik işğala son qoyaraq xalqımızı məğlubiyyət girdabından qurtardı, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olundu.

Müsahibimiz bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan layihələrin önəmi bu gün daha aydın görünür. Ölkəmiz Avropanın üzləşdiyi enerji böhranında xilaskar rolunu oynayır: "Həmçinin Qoşulmama Hərəkatının sədri kimi cənab İlham Əliyevin gördüyü işlər, sərgilədiyi ədalətli mövqe beynəlxalq ictimaiyyətin gözündə onu böyük şəxsiyyətə çevirib. Odur ki, dövlətimizin başçısı istənilən mövzuda keçirilən regional və beynəlxalq təşkilatların tədbirlərinə dəvət olunur, rəy və təklifləri alınır, onun dünyanın gələcəyi ilə bağlı çıxışları və irəli sürdüyü təşəbbüsləri maraqla qarşılanır. Prezidentimizin I Şuşa Qlobal Media Forumunda iştirakı dünya mediasının da diqqət mərkəzindədir, çıxışının əsas məqamları ilə bağlı yazılar dərc olunur, qiymətli fikirləri təhlil edilir".

Səttar Möhbalıyev əlavə edib ki, I Şuşa Qlobal Media Forumunda rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyknyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələlərlə bağlı aparılan müzakirələr, irəli sürülən təkliflər və gəlinən qənaət dünya mediasının inkişafına mühüm töhfələr verəcək.

### Azərbaycan bütün siyasi arenalarda haqlı və güclü mövqe nümayiş etdirir

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib ki, forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm əhəmiyyətə malik məsələlər müzakirə olunub: "Bu günədək çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi Şuşa şəhəri növbəti dəfə müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya topladı.

S.Fətəliyeva həmçinin Prezident İlham Əliyevin forumda dərinməzmunlu çıxışında toxunduğu məsələlər barədə danışaraq bildirib ki, dövlət başçısı bir çox məsələlər, o cümlədən regionda baş verən proseslər, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması barədə fikirlərini ifadə edib. Vurğulayıb ki, Cənubi Qafqazın inkişafı, əsasən, Azərbaycanla Ermənistan arasındakı münasibətlərin yaxşılaşmasından asılıdır. Hazırda bütün beynəlxalq təşkilatlar normallaşma prosesində problemin həllinin beynəlxalq hüquqa əsaslandığını anlayırlar. Əgər Ermənistan Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonuna qədər imzalanması mümkündür. Sülh olmasa, bu regionda sabitlik, təhlükəsizlik yaranmayacaq.

Deputat deyib ki, Şuşada keçirilən I Qlobal Media Forumunun Azərbaycan həqiqətlərinin və bölgədə baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm əhəmiyyəti var.

### Prezidentin səsləndirdiyi fikirlər sülhə xidmət edir

Milli Məclisin deputatı Ceyhun Məmmədov da "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən forum barədə fikirlərini bölüşüb. Deputat Prezident İlham Əliyevin forumda Ermənistan və beynəlxalq ictimaiyyətə ötürdüyü mesajlara xüsusi diqqət çəkib. C.Məmmədov bildirib ki, Ermənistan, eləcə də Qarabağda yaşayan haylar və onların havadarları dövlət başçımızın ismarışlarından dərs çıxarmalıdırlar.

"Əvvəl də dəfələrlə deyildiyi kimi, ermənilər bizim əraziləri ya tərk etməli, ya da Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmalıdırlar. Bu barədə dəfələrlə ismarış verilib. Ermənilərin bundan başqa yolu yoxdur. Belə olan halda Azərbaycan Qarabağda yaşayan ermənilərin bütün hüquq və azadlıqlarını təmin etməyə hazırdır", - deyə deputat qeyd edib.

Müsahimiz bildirib ki, Ermənistan tərəfi təxribat törətməkdən çəkinməli, bu cür addımlara son verməlidir: "Məqsəd bölgədə sülhün bərqərar edilməsi olmalıdır. Əslində, bu mənada müəyyən qədər məsafə qət etmişik, amma hələ də görüləcək xeyli işlər var. Hesab edirəm ki, bu məqsədlərə mərhələli şəkildə nail olacağıq. Elə Prezident İlham Əliyevin də forumda səsləndirdiyi fikirlər sülhə xidmət edirdi. Azərbaycan bölgəyə sülhün gəlməsində maraqlıdır. Şükürlər olsun ki, bu istəyimizə yavaş-yavaş nail oluruq".

Deputatın sözlərinə görə, forumda ötürülən vacib mesajlardan biri də separatçılar yenidən baş qaldıracaqları halda, Azərbaycanın onlara qətiyyətli cavabı ilə bağlı olub: "Haylar təxribatlar törətməkdə davam edərlərsə, Azərbaycanın cavabı sərt və kəskin olacaq. Ona görə də Ermənistan bu məsələlərə yanaşmada diqqətli olmalıdır. Onlar bu tarixi şans və fürsətdən düzgün istifadə etməlidirlər".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***



# Şuşadan dünyaya yayılan yüksək səda

## İlham Əliyev Azərbaycanın gücünü, mövqeyini və hədəflərini bəyan etdi

**Şuşa şəhərində 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsinin iştirak etdiyi "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu başa çatdı.**

Forumun məqsədi qlobal media meyillərini təhlil etmək, milli imkanları gücləndirmək, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və media sektorunda 4-cü Sənaye İnqilabi dövründə təqdim olunan çağırışları və imkanları araşdırmaq idi.

"Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan milli mətbuatının 148-ci ildönümü münasibətilə təşkil edilən forumda Prezident İlham Əliyev bir daha Azərbaycan həqiqətlərini, regiondakı vəziyyəti dünyaya bəyan etdi. Dünyanın müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin suallarını cavablandıran İlham Əliyev Azərbaycanın iqtisadi yüksəlişi, ölkəmizdəki diqqətəlayiq ictimai-siyasi sabitlik, nümunəvi müdafiə məsələlərini və strateji uğurlar gətirən siyasi, inzibati və xarici siyasət fəlsəfəsini bölüşdü.

İlham Əliyev həmçinin əcnəbi jurnalistlərin suallarına verdiyi cavablarda mühüm qlobal və regional məsələlərə də toxundu. Prezident Türkiyənin İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olması, rəsmi Bakının Rusiya ilə münasibətləri, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, İkinci Qarabağ müharibəsində qazanılmış Qələbədən sonra regionda yaranmış yeni reallıqlar, Ermənistanın mina terroru və sülh prosesi kimi məsələlərdən bəhs etdi.

Prezident çıxışında eyni zamanda yeni media sahəsində irəliləyişləri və Azərbaycanın regionda strateji əhəmiyyətini vurğulayaraq bildirdi ki, qabaqcıl texnologiyaların və rəqəmsallaşmanın geniş şəkildə tətbiqi sayəsində media sürətlə inkişaf edir. Bu həm yerli, həm də beynəlxalq media orqanları tərəfindən biznes modellərinin yenidən təsəvvür edilməsinə təkan verir. Azərbaycanda davam edən media islahatları bu sahənin müasir standartlara uyğunlaşdırılmasına və qlobal tələblərə cavab verən kreativ ideyaların təşviqinə yol açıb.

Qalib Ali Baş Komandan Şuşadan dünyaya Azərbaycan xalqının və dövlətinin mesajlarını da çatdırdı. Xarici media nümayəndələrinin Azərbaycanın Qarabağ iqtisadi rayonu ilə bağlı suallarına cavabında İlham Əliyev artıq hər kəsin Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdiyini vurğuladı və bildirdi ki, Ermənistan ölkəmizə qarşı hər hansı ərazi iddialarından imtina etsə, sülh sazişinin ilin sonunadək imzalanması mümkündür. Sülhün olmaması bölgə üçün heç də yaxşı ssenari deyil. Çünki sülh müqaviləsi imzalanmayacağı təqdirdə regionda sabitliyi, təhlükəsizliyi təmin etmək mümkün olmayacaq və bu da gələcəkdə çətinliklər yaradacaq. Eyni zamanda böyük investorların regiona marağını zəiflədəcək.

Ali Baş Komandan Şuşadan bütün dünyaya bəyan etdi: "İndi mən yenə də deyirəm, gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq".

İlham Əliyev dünya mediasının diqqətini ermənilərin vəhşiliklərinə, barbarlığına yönəldərək mənfur qonşumuzu bir daha dünyaya tanıtdı. Prezident Ermənistanın işğal dövründə törətdiyi vəhşiliklərdən bəhs edərək, bu ölkənin gerçək üzünü yenidən ifşa etdi.

Əcnəbi jurnalistlər də buna rəsmən şahidlik etdilər. Yəni təkcə Prezidentin səsləndirdiyi fikirlər deyil, özlərinin ərazidə gördükləri reallıqlar hər şeyi aydın şəkildə ortaya qoydu. Xarici jurnalistlərin Qarabağda şahidi olduqları mənzərə onlarda aydın təsəvvür yaratdı.

Prezident eyni zamanda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərimizlə bağlı prinsipial mövqeyini yenidən səsləndirdi, orada yaşayan ermənilərin gələcək taleyini aydınlaşdırdı, bununla separatçılara və havadarlarına konkret mesajlar verdi. Azərbaycanın yeni dünyada oynadığı roldan tutmuş enerji layihələrinə qədər çoxsaylı məsələlərə münasibət bildirərək kifayət qədər geniş və ətraflı izahlar verdi. Bütün bunlar Azərbaycanın mövqeyinin beynəlxalq səviyyədə gündəmə gətirilməsi baxımından əhəmiyyətli hesab olunmalıdır.

Artıq dünyanın bir çox ölkəsinin əsas media orqanları, agentliklər, televiziyalar bu forumla bağlı geniş materiallar hazırlayıb ictimaiyyətə çatdırırlar. Yayılan bütün informasiyalarda Azərbaycan həqiqətləri bir daha öz əksini tapır. Həmçinin İlham Əliyevin əsl diplomat, qətiyyətli və qurucu lider kimi ortaya qoyduğu mövqeyi də təqdir edirlər. Əcnəbi media nümayəndələrinin canlı şahid kimi hazırladıqları materiallarda Azərbaycan xalqının illərlə dünyaya çatdırmaq istədiyi mesajlar öz əksini tapır.

Bu, əlbəttə ki, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin diplomatik məharətinin, əsl lider qətiyyətinin təntənəsidir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Daha 15 azərbaycanlı gənc bp-nin dəstəyi ilə beynəlxalq universitetlərdə təhsil alacaq

Azərbaycanda ən iri neft, qaz və ixrac layihələrinin operatoru olan bp yüksəkixtisaslı yerli kadrlar yetişdirmək istiqamətindəki sosial layihələrini davam etdirir. Şirkət bu qəbildən olan daha bir layihəni tamamlayıb.

Bu təhsil layihəsi bp-nin dünya səviyyəli təcrübə və bacarıqlar formalaşdırmaqla ölkənin dayanıqlı gələcəyinin qurulmasına dəstək olmaq öhdəliyinin bir hissəsi kimi seçilib. Belə ki, şirkət layihə çərçivəsində aparıcı beynəlxalq universitetlərə hazırlaşmaq üçün 15 istedadlı Azərbaycan gəncinin hazırlıq təlimlərini maliyyələşdirib.

Layihənin özəlliyi həm ondan ibarətdir ki, iştirakçılar bu cür yüksəkkeyfiyyətli hazırlıq kurslarının xərclərini qarşılamaq imkanı olmayan aztəminatlı ailələrdən seçiliblər. Layihə çərçivəsində qrup və fərdi şəkildə təklif olunan 10 aylıq hazırlıq kurslarında iştirakçılar əksər beynəlxalq kollec və universitetlərin tələbə qəbulu üçün istifadə etdiyi SAT və IELTS testlərinə və qəbul imtahanlarına hazırlaşıblar.

Bu layihədə həmçinin iştirakçıların beynəlxalq tələbələr üçün tam təqaüd təklif edən universitetlərlə əlaqə saxlamasına və həmin universitetlərə müraciət etməsinə yardım göstərilib. Hazırkı mərhələdə bütün nəticələr tam məlum olmasa da, bp-nin dəstəklədiyi 15 iştirakçıdan 12-i Türkiyənin Koç Universiteti, Niderlandın "Erasmus University Rotterdam", Belçikanın "Ghent University", Qlazqo Universiteti, Turin Politexnika Universiteti, Sinqapur Milli Universiteti, Honkonq Universiteti, Koreyanın Qabaqcıl Elm və Texnologiyalar İnstitutu və Toronto Universiteti kimi Qərbin və Asiyanın yüksəkreytinqli universitetlərinə qəbul olublar.

Layihənin uğurla bitməsi münasibətilə iştirakçılara sertifikatlar verilib. Universitetlərə artıq qəbul olunmuş gənclərə bp planşetlər də hədiyyə edib.

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyir: "Nəticələr çox möhtəşəmdir. Biz nüfuzlu beynəlxalq universitetlərdən artıq qəbul təklifi almış istedadlı gənclərlə, həqiqətən də, fəxr edirik. Bu universitetlərdən bəziləri mükəmməllik göstəricilərinə görə çox yüksək reytinqə sahibdir. Qalan üç iştirakçının da eyni dərəcədə yüksəkreytinqli universitetlərdən təklif alacağına ümid edirik, çünki onların da qəbul olmaq şansı yüksəkdir. Bu layihəyə qoşulmaqdan çox məmnunuq, çünki bu, ölkənin parlaq gələcəyini quracaq istedadlı,dünya səviyyəli milli kadrların yetişdirilməsi istiqamətində Azərbaycanın səylərinə dəstək olmaq öhdəliyimizi bir daha təsdiqləyir."

Dəyəri 42 min 450 AZN (təxminən 25 min dollar ) təşkil edən bu layihə yerli təşkilat olan "ROOF Academic Training" tərəfindən yerinə yetirilib.

***"Azərbaycan"***

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında
# ƏSASNAMƏ

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) elm və təhsil sahəsində (bundan sonra - müvafiq sahə) dövlət siyasətini və tənzimləməni həyata keçirən, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin elm və təhsil fəaliyyətini əlaqələndirən və istiqamətləndirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Bakı şəhərində yerləşir.

### 2. Nazirliyin fəaliyyət istiqamətləri

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirmək, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin elm və təhsil fəaliyyətini əlaqələndirmək və istiqamətləndirmək;

2.1.4. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.5. elmi müəssisə və təşkilatlara, təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyi və nəzarəti həyata keçirmək;

2.1.6. təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək, elmin və təhsilin keyfiyyət səviyyəsini qiymətləndirmək;

2.1.7. müvafiq sahədə beynəlxalq əməkdaşlığı həyata keçirmək.

### 3. Nazirliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;

3.1.2. müvafiq sahənin inkişafına dair dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında və bu sahənin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək, habelə həmin sənədlərin icrasını təmin etmək;

3.1.3. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.4. elmi müəssisə və təşkilatlarla, təhsil müəssisələri ilə xarici elmi müəssisə və təşkilatlar, təhsil müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarının əlaqələndirilməsini təşkil etmək;

3.1.5. milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını və beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılmasını təmin etmək;

3.1.6. təhsilin keyfiyyətinin artırılması, elmi-metodiki təminatının gücləndirilməsi və təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələrin həyata keçirilməsini təmin etmək;

3.1.7. təhsil müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə, habelə təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarətin həyata keçirilməsini təmin etmək;

3.1.8. təhsil proqramlarını (kurikulumları), tədris planlarını (ali və orta ixtisas təhsil müəssisələri üzrə tədris planları istisna olmaqla) və proqramlarını təsdiq etmək;

3.1.9. hər tədris ili üçün peşə, orta ixtisas və ali təhsil müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulunun müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.10. doktoranturaya illik qəbul və dissertantların təhkimolunma planlarına, habelə doktoranturaların (adyunkturaların) yaradılmasına dair vəsatətə rəy vermək;

3.1.11. ali təhsil müəssisələrində magistraturanın yaradılması ilə bağlı məsələləri həll etmək;

3.1.12. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb olunmasını təmin etmək və icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;

3.1.13. təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

3.1.14. respublika psixoloji-tibbi-pedaqoji komissiyasını yaratmaq, rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarının yaradılmasını təmin etmək;

3.1.15. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmətin, habelə nitq pozuntusu olan təhsilalanlara kömək məqsədilə loqopedik xidmətin təşkilinin təmin olunmasına nəzarət etmək;

3.1.16. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı fənn olimpiadalarının, müsabiqələrin və yarışların keçirilməsini təmin etmək;

3.1.17. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması tədbirlərinin həyata keçirilməsini təmin etmək, onlar üçün məqsədli və adlı təqaüdlərin təsis edilməsi istiqamətində tədbirlər görmək;

3.1.18. təhsil müəssisələrində tədrisin müvafiq dövlət təhsil standartları və ya beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları əsasında digər dillərdə aparılmasına razılıq vermək;

3.1.19. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq siniflərinin və kurslarının təşkilini təmin etmək;

3.1.20. tabeliyində ali təhsil müəssisələri olan dövlət orqanlarının (qurumlarının) və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrini və ixtisasları müəyyən etmək;

3.1.21. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqinin təmin edilməsi üçün tədbirlər görmək;

3.1.22. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasının həyata keçirilməsini və tanınmaya dair sənədlərin verilməsini təmin etmək;

3.1.23. vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsini və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsini təmin etmək;

3.1.24. təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarına riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.25. tədris ilinin müddətinin müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.26. yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını müəyyən etmək;

3.1.27. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri müəyyən etmək;

3.1.28. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy vermək, verilmiş lisenziyanın şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək, lisenziya sahibinin lisenziya şərtlərinə riayət etməməsi hallarını aşkar etdikdə lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana təqdimat göndərmək;

3.1.29. elmi müəssisə və təşkilatlara, təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyin həyata keçirilməsini təmin etmək;

3.1.30. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilinə nəzarət etmək;

3.1.31. ümumi təhsil müəssisələrinin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakı barədə qərar qəbul etmək;

3.1.32. təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsini və onlara akkreditasiya şəhadətnaməsinin verilməsini təmin etmək;

3.1.33. məktəbəqədər təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq edən mexanizmlərin həyata keçirilməsini təmin etmək;

3.1.34. təhsil sahəsində qeyri-dövlət sektorunun dəstəklənməsi və rəqabət mühitinin inkişafı məqsədilə özəl və bələdiyyə təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq etmək, dəstəkləmək, onlara metodiki kömək göstərmək;

3.1.35. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar və ali təhsil müəssisələri istisna olmaqla, tabeliyində olan təhsil müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan təhsil müəssisələrinin nizamnamələrini təsdiq etmək, habelə bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

3.1.36. təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51 faizindən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyinə razılıq vermək;

3.1.37. təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodiki vasitələrinin müəyyən edilmiş qaydada hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin etmək;

3.1.38. elm və təhsil fəaliyyətinin səmərəli təşkilinə, idarə edilməsinə və inkişafına, maddi-texniki baza, infrastruktur, avadanlıq, yüksəkixtisaslı elmi və pedaqoji kadrlar, informasiya və digər zəruri vasitələrlə təminatına şərait yaratmaq;

3.1.39. elmi fəaliyyət subyektlərinin elmi istinadlı informasiya resurslarına çıxışının təmin edilməsini dəstəkləmək;

3.1.40. müvafiq sahədə planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə və qiymətləndirmənin (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirilməsini təmin etmək;

3.1.41. maddi-texniki və tədris bazasının yenilənməsi məqsədilə dövlət məktəbəqədər, ümumi və peşə təhsili müəssisələrinin ümumtəhsil və ixtisas dərslikləri, tədris vəsaitləri, ədəbiyyat, əyani və texniki vəsaitlərlə təmin edilməsini həyata keçirmək;

3.1.42. tabeliyində olan təhsil müəssisələrində tam dövlət təminatında olan təhsilalanların yemək, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, yataq ləvazimatı, dərslik, tədris ləvazimatı, zəruri avadanlıqlarla və s. ilə təmin edilməsini həyata keçirmək;

3.1.43. dövlət təhsil müəssisələrinin (yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan uşaq evləri istisna olmaqla) tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatının həyata keçirilməsini təmin etmək;

3.1.44. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təkliflər vermək;

3.1.45. tabeliyində olan məktəbəqədər, ümumi və peşə təhsil müəssisələrinin təhsilverənlərə (pedaqoji kadrlara) tələbatının müəyyən edilməsini, habelə həmin müəssisələrin kadr təminatının həyata keçirilməsini təmin etmək;

3.1.46. tabeliyində olan təhsil müəssisələrində təhsil fəaliyyətinin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqinə şərait yaratmaq;

3.1.47. tabeliyində olan təhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsilini təmin etmək;

3.1.48. dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinin idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin həyata keçirilməsini təmin etmək;

3.1.49. dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin sertifikatlaşdırılmasının həyata keçirilməsini təmin etmək;

3.1.50. dövlət təhsil müəssisələrinin (adambaşına maliyyələşən təhsil müəssisələri istisna olmaqla) nümunəvi ştatlarının və xərc normalarının müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.51. tabeliyində olan elmi müəssisə və təşkilatlar,təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlamaq, bununla bağlı təkliflərini təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti təmin etmək;

3.1.52. hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (uşağa, şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarına və maliyyə normativlərinə dair təkliflər vermək;

3.1.53. təhsili idarəetmə orqanlarının, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsini və istiqamətləndirilməsini təşkil etmək;

3.1.54. elmi müəssisə və təşkilatlarda, təhsil müəssisələrində aparılan elmi araşdırmaların əlaqələndirilməsi, elmi tədqiqat işlərinin dəstəklənməsi və mükafatlandırılması istiqamətində tədbirlər görmək;

3.1.55. elmi kadr tələbatını müəyyən etmək və həmin tələbata uyğun olaraq dövlət sifarişi əsasında elmi və elmi-pedaqoji kadrların hazırlanması ilə bağlı təkliflər vermək;

3.1.56. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.57. Azərbaycan Respublikası vətəndaşlarının yüksəkreytinqli xarici ali təhsil müəssisələrində və elm-təhsil mərkəzlərində təhsilinin təşkili və elmi fəaliyyəti üçün tədbirlər görülməsini təmin etmək;

3.1.58. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi istiqamətində tədbirlər görülməsini təmin etmək;

3.1.59. dövlət peşə təhsili müəssisələrində təhsilalanların xüsusi iş geyim formaları ilə təmin olunmasına nəzarət etmək;

3.1.60. təhsilverənlərin etik davranış qaydalarını müəyyən etmək;

3.1.61. peşə təhsili müəssisələrinə tələbə qəbulunun həyata keçirilməsini təmin etmək;

3.1.62. tabeliyində olan ümumi təhsil müəssisələrinə, məktəbəqədər təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun, həmçinin şagirdlərin sinifdən-sinfə keçirilməsinin və yerdəyişməsinin həyata keçirilməsini təmin etmək;

3.1.63. təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görmək, uşaq, şagird və tələbələrin idman yarışlarında, turist yürüşlərində iştirakına, onların texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək verilməsini təmin etmək;

3.1.64. fiziki tərbiyə dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsi, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığının təmin edilməsi, habelə təhsilalanların müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsinə şəraitin yaradılması üçün tədbirlər görmək;

3.1.65. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.66. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.67. təhsil müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmasını və ondan istifadəsini təmin etmək;

3.1.68. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.69. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.70. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.71. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.72. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, pozulmasının qarşısını almaq;

3.1.73. Nazirlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.74. Nazirliyə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.75. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

### 4. Nazirliyin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Nazirlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. elmi müəssisə və təşkilatlardan, təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun olaraq, o cümlədən elmdə və təhsildə inkişaf və innovasiyalar üzrə hüquqi və fiziki şəxslərə qrantların verilməsini təmin etmək;

4.1.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait çərçivəsində elmi tədqiqat işlərinin aparılmasını təmin etmək;

4.1.6. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.7. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.8. elm və təhsil işçilərinin həvəsləndirilməsi, mükafatlandırılması, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

4.1.9. dövlət elmi müəssisə və təşkilatlarında, təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təkliflər vermək;

4.1.10. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təkliflər vermək;

4.1.11. çap mediası və onlayn media subyektini təsis etmək;

4.1.12. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.13. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq və danışıqlar aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

4.1.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 5. Nazirliyin fəaliyyətinin təşkili

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının elm və təhsil naziri (bundan sonra - nazir) rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dörd müavini vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. nazir müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.5. Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini, əməyin ödənişi fondunu və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.7. tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddinivə əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq edir, onların ştat cədvəlinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Nazirliyin Aparatının işçilərini, strukturuna daxil olan qurumlarınvə strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini (Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla) və onların müavinlərini (ali təhsil müəssisələrində prorektorları), strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərini, həmçinin ali təhsil müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.9. Nazirliyin strukturuna daxil olan qurumların yerli bölmələri rəhbərlərinin müavinlərinin və yerli bölmələrin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin, eləcə də Nazirliyin strukturuna daxil olan qurumların strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.13. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.14. dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyində olan təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən və tabeliyində olan digər qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.17. Nazirliyin Aparatının işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə, habelə strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir.

5.6. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən, Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin Kollegiyası üzvlərinin sayını və Kollegiyanın tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları;

5.11.6. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

5.11.7. bu Əsasnamənin 5.11.1-5.11.6-cı yarımbəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Nazirliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edə bilərlər.

5.14. Nazirliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.15. Nazirlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

5.16. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi, habelə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi tədqiqat fəaliyyətlərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi məqsədilə Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən şuralar yaradıla bilər.

# "Dayanıqlı gələcək. Heç kəsi geridə qoymayaq"

## Professor Gülçöhrə Məmmədova hesab edir ki, Ümumdünya Memarlar Konqresinin nəticələri Azərbaycan memarları üçün müsbət təcrübə olacaq



**Danimarkanın paytaxtı Kopenhagen şəhərində Beynəlxalq Memarlar İttifaqının təşkilatçılığı ilə Ümumdünya Memarlar Konqresi keçirilib. Konqresdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru professor Gülçöhrə Məmmədova, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Fərid Kərimov, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının baş müəllimi Aliya Əliyeva, Memarlıq fakültəsinin tələbələri Leyli Əfəndiyeva, Jalə Abuşova, Aynəsey Qafarzadə, Ramid Səlimov və başqaları iştirak ediblər. "Dayanıqlı gələcək. Heç kəsi geridə qoymayaq" şüarı ilə keçirilən konqresə 135 ölkədən ümumilikdə 6000-dən çox iştirakçı qatılıb və memarlığa, qlobal dizayn sənayesinə aid olduqca aktual məsələlər müzakirə edilib.**

**Ölkəmizdə memar və dizaynerlərin hazırlandığı əsas ali təhsil müəssisəsinin rektoru, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova ilə söhbət zamanı konqresdə iştirakın Azərbaycan memarlığının müasir, qabaqcıl dünya memarlığı və dizayn layihələrinə inteqrasiyası, eyni zamanda qlobal çağırışlara cavab verəcək şəkildə inkişafı üçün çox böyük əhəmiyyət kəsb etdiyini qeyd etdi.**

- Gülçöhrə xanım, memar və rektor kimi fikrinizcə, Ümumdünya Memarlar Konqresinin ölkəmiz və ya AzMİU üçün əhəmiyyəti nədən ibarətdir?

- Belə böyük nümayəndə heyəti ilə beynəlxalq konqresdə iştirakımız ilk növbədə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdəki yüksək inkişafın və yaradılan sağlam ab-havanın nəticəsində mümkün olmuşdur. Yaxın qonşu ölkələrdən konqresə qatılan nümayəndə heyətinin sayca bizdən dəfələrlə az olduğunun şahidi olduq. Əlbəttə ki, bizim daha geniş heyətlə təmsil olunmağımıza beynəlxalq layihələrdə aktiv iştirakımızla yanaşı, universitetimizin maddi imkanlarının yüksəlməsi də imkan verdi.

Hesab edirik ki, bu konqresdə iştirak etmək çox faydalı oldu. Ona görə ki, bütün dünyanın ən önəmli, tanınan memarları tədbirdə bir araya gəlmişdilər. Orada dünya memarlarının hansı problemlər barədə düşündüyünü, ölkələrdə hansı yeniliklərin olduğunu, bütövlükdə Beynəlxalq Memarlar İttifaqının gələcəyə və bügünkü memarlığa baxışını öyrənmək olur. Bu, həm ölkəmizdə memarlığın inkişafı, həm də yeni nəsil memarların yetişdirilməsi üçün çox vacib amildir.

- Nümayəndə heyətinin tərkibində tələbələriniz də olub?

- Tələbələrimizin bu konqresdə iştirakı ilk deyil. Yeri gəlmişkən, qeyd edim ki, Ümumdünya Memarlar Konqresi 3 ildən bir keçirilir. İlk dəfə İtaliyanın Turin şəhərində keçirilmiş konqresdə bizim 3 tələbəmiz iştirak etmişdi. Biz indi baxanda görürük ki, o nümayəndə heyətinin tərkibində olan tələbələrin hər biri nüfuzlu memar kimi fəaliyyət göstərirlər. Düşünürəm ki, müasir memarların forumunda iştirak onların bu sahəyə həvəsini daha da artırmış və mütəxəssis kimi formalaşmalarında rol oynamışdır.

Bu dəfə isə biz 4 tələbəmizin konqresdə iştirakını təmin etdik. Hesab edirəm ki, bu, onlar üçün çox böyük təcrübə oldu.

- Kopenhagen kimi gözəl memarlığa sahib olan şəhərdə, dünyanın ən məhşur memarları ilə görüşmək imkanı və rektorla birgə səfər... Gülçöhrə xanım, konqresdə iştirak edən tələbələr necə seçildi?

- Əlbəttə, bu da çox vacib amildir. Çünki biz istəyirdik ki, təhsildə uğurlu olan tələbələr bu konqresə cəlb olunsunlar.

Seçim 3 mərhələdən ibarət olub. Əvvəlcə konqreslə bağlı elan verdik və tələbələr özləri internet üzərindən iştirak etmək arzularını bildirdilər. Sonra Memarlıq fakültəsinin dekanlığı müraciət edən tələbələrin təhsil nəticələri barədə məlumat verdi. Həmin tələbələrdən təhsil nəticələri ən yaxşı olanlar seçildi və universitetin Xarici əlaqələr şöbəsi tərəfindən müsahibəyə dəvət edildilər. Müsahibədə onların ingilis dili biliyi, beynəlxalq tədbirlərdə təcrübə və iştirakının olub-olmaması barədə məlumatlar öyrənildi. Yekunda ən yaxşıları seçildi və onlar bizimlə konqresə getdilər. Düşünürəm ki, seçim tam obyektiv aparılıb, səfər boyunca seçilən tələbələrin hər biri bunu davranışı və biliyi ilə sübut etdi. Tələbələrimizin memarlığı öyrənmək istəyi universitet rəhbərliyi, müəllimlərimiz üçün də çox böyük stimuldur.

Kopenhagenin özünəməxsusluğuna gəlincə isə... Bura maraqlı şəhərdir, onun konqres mərkəzi olaraq seçilməsi də təsadüfi deyil. Şəhərin tarixi çox qədim olmasa da, tarixi abidələr yüksək səviyyədə mühafizə olunur. Şəhərdə tarix və müasirliyin vəhdəti memarlıqda özünü çox gözəl nümayiş etdirir. Daha önəmlisi isə Kopenhagenin müasir memarlığıdır. Müasir memarlıq müasir texnologiyalar və inşaat materiallarıdır, müxtəlif materialların estetik və funksionallıq baxımından harmonik şəkildə istifadəsidir, müasir formalardır, enerji qənaətidir, insan sağlamlığının təmin edilməsidir, ekoloji məsələlərin həllinə dəstəkdir. Baxın, müasir memarlıqda bunlar önə çəkilir.

- Bəzən elə təsəvvür yaranır ki, memarlar daha hündür mərtəbəli bina inşa etmək üçün yarışırlar. Bu cür mübarizə fonunda insan sağlamlığı sizcə, nə qədər əhəmiyyət kəsb edə bilər?

- Dünya İqtisadi Forumunun qurucusu və sədri Klaus Şvabın "IV Sənaye İnqilabı" adlı maraqlı elmi-populyar əsəri var. Bu əsərdə müasir inkişaf trayektoriyası və xüsusilə meyillərə istinad edilərək bəşəriyyətin üzləşə biləcəyi təhdidlər göstərilir. Yəni müasir texnoloji inkişaf, süni intellekt, robotlaşma, gen analizi və sairə kimi istiqamətlərin birlikdə bilinən sivilizasiyalara rəqib formada təzahüründən ehtiyat edilir. Müəllif əvvəlki sənaye inqilablarını təhlil edərək yeganə çıxış yolunu insan inkişafını dəyişikliyin mərkəzində saxlamaqda görür. Bu, memarlıqda da belədir. Memarlıq və şəhərsalma insan üçündür. Hər şeyin mərkəzində insan dayanır. Kopenhagen şəhərində biz bunu gördük. Bu şəhər Avropanın paxtaxt şəhəri olmasına baxmayaraq, avtomobillərin sayı Bakıdan xeyli azdır. İnsanlar ictimai nəqliyyatdan daha çox istifadə edirlər, velosiped sürürlər. Yaşıllıq və ictimai zonalar kifayət qədərdir. İnsanların o zonalardan istifadəsi üçün çox rahat mühit yaradılıb. Velosiped həyatın vacib tərkib hissəsinə çevrilib, ondan istifadə edənlər üçün rahat zolaqlar, hərəkət sahələri müəyyən edilib. Piyadalar üçün yaxşı şərait yaradılıb. Səkilər səliqəli və enlidir, piyada yolları yaşıl zolaqlarla avtomobil yollarından ayrılır. Ekologiyaya çox böyük diqqət yetirilir. Həm materialların seçilməsində, həm daxili məkanların planlaşdırılmasında, izolyasiyasında bu məsələləri nəzərə alsaq, Kopenhagendəki memarlıq ən müasir, qabaqcıl memarlıq məktəblərindən biridir.

- Konqresin şüarı da maraqlıdır - "Dayanıqlı gələcək. Heç kəsi geridə qoymayaq". Dünya memarları bu şüarla nə demək istəyirlər?

- Məncə, bu şüar Dünya Memarlar İttifaqının, dünya memarlarının nə demək istədiyini kifayət qədər aydın ifadə edir. Konqresin məqsədi memarlığın dayanıqlı inkişafa töhfə verməsinə nail olmaq və dünyanın heç bir ölkəsinin, heç bir toplumunun bu inkişafdan kənarda qalmamasını təmin etməkdir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) dayanıqlı inkişafa yönəlmiş 17 məqsədinin içərisində yalnız 1 məqsədi memarlıqla bağlıdır. 11-ci məqsəd şəhərsalma, şəhərlərin dayanıqlı inkişafı ilə əlaqədardır. Beynəlxalq Memarlar İttifaqı tərəfindən isə hesab edilir ki, memarlığın BMT-nin 17 dayanıqlı inkişaf məqsədlərinin hamısına təsiri var. Konqresdə bu təsirin necə olması, memarların həmin o məqsədlərə çatmaq üçün nə etməli olduğu müzakirəyə çıxarılmışdı. Bu və bu kimi məsələlərə uyğun 6 mövzu ümumiləşdirilərək müzakirəyə çıxarılmışdı:

- *iqlim dəyişiklikləri və onların memarlığa təsiri;*
- *resurslara yeni yanaşma;*
- *icmaların inkişafı məsələsinə memarlığın dəstəyi;*
- *memarlıq və cəmiyyətin, bəşəriyyətin sağlamlığı;*
- *inklüzivlik - fiziki cəhətdən məhdud imkanlı insanları memarlıq vasitəsi ilə cəmiyyətə inteqrasiya etmək;*
- *dayanıqlı inkişafın təmin edilməsində əməkdaşlıq məsələsi.*

Panelə bu məsələlər çıxarılmışdı, çoxsaylı müzakirələr aparıldı. Panellərdə maraqlı fikirlər söylənildi, yeni ideyalar ortaya qoyuldu, tələbələrimiz də bu müzakirələrdə canlı dinləyici oldular.

- Gözlənilən nəticə əldə olundumu?

- Bəli. Düşünürəm ki, gözlədiyimiz nəticə əldə olundu. Hamımız, həm müəllimlər, həm də tələbələr müasir memarlığın inkişaf istiqamətləri və trendlər barədə geniş məlumat aldıq, müxtəlif yeni ideyalarla tanış olduq. Beynəlxalq əlaqələrin tətbiqi ilə inkişafımız üçün düzgün istifadə edilməsi bizim hər zaman ciddi şəkildə diqqətdə saxladığımız məsələlərdən olub. Konqresdə iştirakımızın məqsədlərindən biri də bu idi.

Biz universitet olaraq bu işi imkanlarımız daxilində davam etdirəcəyik, tələbələrimizin bu kimi beynəlxalq formlarda iştirakını təmin etməyə çalışacağıq. Universitetin Elmi Şurasının sonuncu iclasında bu məsələni müzakirə etdik və bütün ixtisaslar üzrə idarəedici şəxslərə tapşırıldı ki, nüfuzlu beynəlxalq tədbirlərdə müəllim və tələbələrimizin iştirakını təmin etməyə çalışsınlar. Düşünürəm ki, bu, universitetimizlə yanaşı, ölkəmiz üçün də faydalıdır. Gənc mütəxəssislərin öyrəndiklərini, gördükləri müsbət təcrübəni tətbiq etməsi Azərbaycan memarlığına yeni nəfəs gətirəcək.

Daha yaxşı dünya, daha yaxşı gələcək üçün əlimizdən gələni etmək hər birimizin borcudur. Bizim də əsas borcumuz ölkəmizin inkişafı, xüsusilə işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması, bərpası üçün savadlı və layiqli kadr yetişdirməkdir. O ərazilərdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli tikinti-quruculuq işləri həyata keçirilir, Böyük qayıdış proqramı icra edilir. Biz universitet olaraq bu prosesi dəstəkləmək üçün yeni, daha effektiv metodlardan istifadə etməyə çalışmalıyıq, yeni yanaşmalar, yeni metodlar tətbiq etməliyik. Tələbələrimizin belə mötəbər konqresdə iştirakı, qlobal memarlıq, şəhərsalma, dizayn çağırışları ilə tanış edilməsi məhz bu işin bir parçasıdır.

***Müsahibəni apardı:***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İsveçrənin "Argor-Heraeus" şirkəti "AzerGold" QSC-nin fəaliyyətini müsbət qiymətləndirib

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən istehsal edilən qızıl və gümüş tərkibli xəlitələrin saflaşdırılması və xarici bazarda satışı məqsədi ilə 2017-ci ildən etibarən əməkdaşlıq etdiyi İsveçrənin beynəlxalq nüfuzlu affinaj şirkəti "Argor-Heraeus"un təmsilçiləri ölkəmizdə səfərdə olublar.




"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, səfər London Qiymətli Metallar Bazarı Assosiasiyasının üzvü olan "Argor-Heraeus" şirkətinin həmin assosiasiyanın "Məsuliyyətli Təchizatçı" Proqramı çərçivəsində həyata keçirilib. Şirkətin nümayəndələri QSC-nin baş ofisində müxtəlif görüşlər keçirib, həmçinin Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsini ziyarət ediblər.

Beynəlxalq şirkətin vitse-prezidenti, Qlobal biznes bölməsinin maliyyə direktoru Frank Mohrhardt və Keyfiyyətə nəzarət üzrə rəsmisi Maryana Cheterbok QSC-nin fəaliyyətini beynəlxalq tələblər və şəffaflıq meyarları üzrə qiymətləndiriblər. Belə ki, qonaqlar hasilat və istehsalat prosesi, ətraf mühitin mühafizəsi, sağlamlıq və əməyin təhlükəsizliyi, işçilər üçün yaradılmış əmək şəraiti və digər istiqamətlər üzrə görülən işlərlə əyani tanış olublar.

Audit heyəti "Çovdar" qızıl mədəninin yaxınlığında yerləşən kəndlərin sakinlərinin növbəti səyyar tibbi müayinə aksiyasının həyata keçirildiyi düşərgəni də ziyarət edib, müayinə prosesini izləyib, yerli sakinlər arasında müxtəlif sorğular keçiriblər. Qonaqlar QSC-nin korporativ sosial məsuliyyət sahəsində icra etdiyi layihələr haqqında məlumatlar toplayaraq təhlil ediblər. Yoxlamanın ilkin nəticəsi olaraq müsbət rəyin formalaşdığı qeyd edilib, "AzerGold"un fəaliyyətinin beynəlxalq mədənçilik standartları, norma və prinsipləri çərçivəsində təşkil edildiyi vurğulanıb.

Məlumat üçün qeyd edək ki, beynəlxalq təcrübəyə uyğun olaraq nüfuzlu affinaj şirkətləri hasilatçı şirkətləri müxtəlif meyarlar əsasında araşdırır, dünya səviyyəsində tətbiq olunan əsas tələblər - KYC (Know Your Customer - Müştərini Tanı) və "Due Diligence" (hüquqi ekspertiza) prosedurları üzrə müxtəlif mərhələli yoxlamalardan keçirirlər. Yalnız bütün standartlara cavab verdiyi müəyyən edildikdən sonra şirkətə hasil edəcəyi xəlitələri saflaşdıra biləcəkləri barədə müsbət rəy verilir. Xatırladaq ki, "AzerGold" QSC-yə müvafiq müsbət rəy 2017-ci ildə təqdim edilib.

# Startapçılar aqrar sektora da maraq göstərirlər

Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü və Aqrar İnnovasiya Mərkəzinin tərəfdaşlığı ilə müntəzəm olaraq aqrar texnologiyalara dair müxtəlif müsabiqə, yarışma, hakaton və festivallar keçirilir.

Bu müsabiqələrin əsas məqsədi aqrar sahədə innovasiyaların təşviqi və tətbiqinə, aqrar startapların inkişafına, innovasiyalardan və rəqəmsal texnologiyalardan istifadə etməklə aqrar sahədə məhsuldarlığın yüksəlməsinə və aqrar idarəetmənin təkmilləşməsinə dəstək verməkdir. Bu günlərdə həmin tədbirlərdən biri başa çatmışdır.

Bu günlər kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrar sahəyə dair müxtəlif yarış, müsabiqə və festivallarda öz startap layihələri ilə iştirak etmiş gənclərlə görüşüb. O, startapçı gənclərin müsabiqəyə təqdim etdikləri layihələrlə ətraflı tanış olduğunu söyləyərək hər bir layihəni ayrılıqda müsbət qiymətləndirib. Startap müsabiqələrinin, yarış və festivallarının Azərbaycanda çox da böyük yaşı olmasa da, bu ilin əvvəlindən startap məktəbinin fəaliyyətə başladığını söyləyib.

Bu yerdə "startap nədir, mexanizmi necədir?" sualını cavablandıraq. Startap anlayışı XX əsrin əvvəllərində və əsasən IT (İnformasiya Texnologiyaları) sahəsində meydana gəlsə də, hazırda demək olar ki, bütün biznes sahələrində yaradılıb və yaradılmaqdadır. "Start up" termini ingiliscə "prosesin başlanğıcı" deməkdir və bu ifadə ilk dəfə 1973-cü ilin avqustunda "Forbes", 1977-ci ilin sentyabrında isə "Business Week" jurnallarında istifadə edilmişdir. Müştəri inkişafı metodologiyasının yaradıcısı kimi layihənin təşəbbüskarı amerikalı Stefan Blank olub. Məşhur startaplara misal olaraq "Facebook", "YouTube", "Whatsapp Coursera", "Uber" və başqalarını göstərmək mümkündür.

Dünyanın əksər dövlətləri, beynəlxaq qurum və təşkilatları startapların yaradılmasına və inkişafına dəstək verirlər. Çünki bu platformalar iqtisadiyyatın inkişafına və böyüməsinə təkan verir, cəmiyyətin hansısa xidmət üzrə tələbatını ödəyir, iş imkanları yaradır, startaplara dəstək olan investorlara gəlir gətirir. Bəzən startapların dəyəri 1 milyard dolları keçə bilir və o zaman onlar "yunikorn" adlanmağa başlayır. Startap layihələri, bir qayda olaraq, hər hansı problemi həll etmək üçün mümkün variantı tapan bir və ya bir necə təsisçi tərəfindən başlanılır. Startap təsisçisi bazar şəraitini yoxlayıb təsdiqləmək üçün öncə həmin bazarda müəyyən bir problemin olub-olmadığını araşdırır. Əgər problem varsa həllini tapır və minimum işlək məhsul (MİM) yaradır.

Startap miqyaslanabiləcək bir biznes modeli olaraq öncə axtarmaq, daha sonra inkişaf etdirmək və təsdiqləmək üçün yaranan şirkət və ya layihədir. Startapların bir çox hallarda əməliyyat tarixi qısa olur. Bu o deməkdir ki, onlar qısa müddət ərzində ya uğurlu şirkətlərə çevrilir, ya da uğuruzluqla üzləşib müflisləşirlər. Startaplar, adətən, yüksək qeyri-müəyyənliklə qarşılaşırlar. Bu səbəbdən uğursuz olma ehtimalları yüksəkdir. Buna baxmayaraq, uğur yolunu qət etməkdə davam edən az sayda şirkətin böyük və nüfuzlu olmaq potensialı var.

Startap sahibkarlıq deyildir. Bəzən onları bir-birinə bənzədirlər. Oxşar anlayışlar olsa da, ayrı-ayrı fəaliyyətlərlə məşul olurlar. Sahibkarlıq bütün yeni müəssisələri əhatə edir. Bura özünüməşğulluq fəaliyyəti və böyümək arzusu olmayan müəssisələr də daxildir. Startap isə yalnız təsisçidən ibarət deyil. Bu, kənar ərazilərdə də inkişaf etmək niyyətini ön plana çəkən, özünün işçiləri olan və sürətlə böyümək məqsədi daşıyan yeni müəssisə növüdür.

Hazırda startaplara dünyada ən yaxşı dəstək göstərən ilk 5 ölkə Yaponiya, Almaniya, ABŞ, İsveç və Birləşmiş Krallıqdır. Azərbaycanda da startaplara dəstək göstərən, onların inkişaf etməsi üçün şərait yaradan dövlət qurumları və mərkəzlər var. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki İnformasiya Texnologiyalarının İnkişafı Dəstək Fondu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan İnvestisiya Şirkəti, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu startaplara ən yaxşı dəstək göstərən qurumlardır. Məhz həmin dəstək nəticəsində son illər Azərbaycanda startap sahəsində dövlət və özəl təşkilatlar tərəfindən bir sıra uğurlu layihələr həyata keçirilib ki, onlardan biri də aqrar sahəyə dair adıçəkilən startap layihələridir.

Həmin layihələrin təqdim olunduğu müsabiqənin başa çatmasından sonra gənc startapçılarla görüşən kənd təsərrüfatı naziri müsabiqələrə təqdim olunan startap layihələrini müsbət qiymətləndirmiş, bu layihələrin gələcəkdə kənd təsərrüfatı məhsullarının istehsalında səmərəliliyin artmasına müsbət təsir göstərəcəyinə əminliyini vurğulamışdır. Nazirlik tərəfindən aqrar startaplara hər cür dəstəyin göstəriləcəyini deyən Məcnun Məmmədov aqrar sahədə tətbiq olunacaq yeni texnologiyaların ölkə iqtisadiyyatının inkişafına dəstək verəcəyini bildirmiş və bu istiqamətdə göstərdikləri fəaliyyətdə startapçılara uğurlar arzulamışdır.

Görüşdə qeyd olunmuşdur ki, bölgələrdə də aqrar innovasiya festivalları keçirilir. Festivallarda 10-dan artıq ali məktəbin 20-dən çox startap komandasının iştirakı təmin olunub. "Teknofest" Aviasiya, Kosmos və Texnologiya Festivalı, "Agro X", "Greenovation", "Ideathon on Agrinnovation", "Baku Food Hackathon", "Gələcək üçün bacarıqlar" müsabiqələrində iştirak etmiş startapçılar öz layihə və prototiplərini təqdim ediblər. Hər bir layihənin təsisçisi və müəllifi festivalda iştirak etmələrindən dolayı razı qaldıqlarını dilə gətirmiş, nəticənin müsbət olacağına əmin olduqlarını bildirmişlər.

Layihələr arasında çox maraqlı qurğular var ki, onlar kənd təsərrüfatına lazım ola biləcək texnologiya sayıla bilər. Məsələn, fındıq məhsulunu toplayan qurğu çox diqqətçəkəndir. Suvarmanın süni intellektlə idarəolunması məqsədilə avadanlıq və vebplatforma, avtomobillər üçün portativ qida bloku, qrunt sularını idarəedən səki daşları da startapçıların müasir innovativ texnologiyalara töhfəsi kimi qiymətləndirilir. Aqrar innovasiyalar festivallarında iştirak edən bioqaz, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, geni modifikasiya olunmuş baramalar, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot kimi startaplarda maraq doğuran layihələrdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Kimlər peşəkar mühasib sayılırlar?

İstənilən fəaliyyət sahəsində yerinə yetirilməsi vacib məsələlərdən biri mühasibat uçotunun düzgün aparılmasıdır. Daha konkret ifadə etsək, mühasibat uçotu hər bir fəaliyyət subyektinin aktivləri, öhdəlikləri, kapitalı, gəlir və xərcləri barədə məlumatların yığılması, qeydiyyatı və ümumiləşdirilməsidir.

Hər bir müəssisənin effektiv fəaliyyəti müxtəlif iqtisadi amillərlə yanaşı, həm də mühasibat uçotunun düzgün aparılmasından, bütövlükdə mühasibatlıq sisteminin fəaliyyətinin effektiv qurulmasından asılıdır. Başqa cür ifadə etsək, mühasibat uçotunun aparılması elə bir fəaliyyət növüdür ki, bu işin nəticəsində müəssisə gəlir də əldə edə bilər, zərər də görər.

Əlbəttə, hər bir müəssisə dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində rol oynayan subyekt olduğundan, büdcə gəlirlərinin formalaşmasında, məşğulluğun təmin edilməsində iştiraka görə mühasibatlıq sahəsinə dair bir sıra tələblər var ki, bunlardan biri də mühasiblərin peşəkarlığıdır. Peşəkarlıq isə yalnız mühasibatlığın fəaliyyətinin düzgün həyata keçirilməsi və ya mühasibin öz işini nəzəri və praktiki baxımından bilməsi kimi qavranılmamalıdır. Peşəkarlıq həm də mühasibin yeni biliklər əldə etməsi və peşəkarlığının qiymətləndirilməsi üçün sertifikasiyadan keçməsidir.

Maliyyə Nazirliyinin Maliyyə Elm-Tədris Mərkəzinin məlumatına əsasən, mühasiblərin sertifikasiyası beynəlxalq səviyyədə qəbul edilmiş bir tələbdir, normadır. Bu baxımdan heç də təsadüfi deyil ki, mühasiblərin peşəkarlıq sertifikasiyasına cəlb olunması hər bir ölkənin milli qanunvericiliyi ilə təsbit olunur. Azərbaycanda mühasiblərin sertifikasiyası "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu qanunda da qeyd olunduğu kimi, peşəkar mühasib müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçərək, peşəkar mühasib sertifikatını almış şəxsdir. Peşəkar mühasib sertifikatı isə peşəkarlıq səviyyəsinə uyğunluğu təsdiq edən sənəddir.

Nazirlər Kabinetinin təsdiq etdiyi "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması" qaydalarına əsasən, peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

Peşəkar mühasib sertifikatının qüvvədəolma müddəti beş ildir. Peşəkar mühasib kimi fəaliyyətini davam etdirmək istəyən şəxs peşəkar mühasib sertifikatının qüvvədəolma müddətinin sonuncu ilində növbəti sertifikatı almaq üçün yenidən imtahanlarda iştirak etməli və peşəkar mühasib sertifikatı almalıdır. Peşəkar mühasib sertifikatı alaraq fəaliyyətə başlayan şəxs sonradan iki dəfə eyni standart üzrə sertifikat aldıqda, sonuncu sertifikat ömürlük verilir və həmin şəxs sertifikatda qeyd olunan standart üzrə peşəkar mühasib kimi fəaliyyətini davam etdirməsi üçün hər hansı imtahana cəlb olunmur.

Göründüyü kimi, yalnız müvafiq sertifikata malik olan mühasiblər peşəkar mühasib sayılırlar.

***"Azərbaycan"***

İDMAN

## Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalı start götürdü

Sloveniyanın Maribor şəhərində Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalının açılış mərasimi olub.



Açılış mərasimində idmançıların paradı keçirilib. Azərbaycan millisinin keçidi zamanı ölkəmizin bayrağını Mədinə Babayeva və Ramazan Əhmədov daşıyıblar.

Azərbaycan idmançıları festivalda atletika, tennis, üzgüçülük, velosiped (MTB), cüdo və gimnastika idman növlərində təmsil olunurlar.

Festivalda 48 ölkədən idmanın 11 növündə 3600-ə yaxın 14-18 yaşlı yeniyetmə iştirak edir. Yarışın bağlanış mərasimi iyulun 29-da olacaq.

## Basketbol üzrə qızlardan ibarət U-16 millimiz Avropa çempionudur

Andorrada 16 yaşlı qızlar arasında keçirilən basketbol üzrə Avropa çempionatının "C" divizionunda final oyunu baş tutub.




Millimiz və ev sahibi Andorra seçməsi arasında keçirilmiş həlledici oyunda Azərbaycan basketbolçuları rəqibinə 57:45 hesabı ilə qalib gələrək Avropa çempionu olub.

Qeyd edək ki, komandamız qrup mərhələsində keçirdiyi hər üç qarşılaşmada da inamlı qələbələr qazanıb.

Bu çempionluq Azərbaycan qadın basketbolu adına tarixi bir ilk və böyük uğurdur.

## UEFA: Azərbaycan klublarının potensial rəqibləri bəlli oldu

İsveçrənin Nyon şəhərində keçiriləcək püşkatma mərasimində UEFA Çempionlar Liqasının və Konfrans Liqasında Azərbaycan klublarının üçüncü təsnifat mərhələsindəki potensial rəqibləri bəlli olub.

Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının ikinci təsnifat mərhələsində Polşanın "Rakuv" komandasını üstələcəyi təqdirdə növbəti raundda "Aris" (Kipr) - BATE (Belarus) cütünün qalibi ilə üz-üzə gələcək.

Qeyd edək ki, üçüncü təsnifat mərhələsinin ilk matçları avqustun 8-9-da, cavab görüşləri isə həmin ayın 15-də oynanılacaq.




UEFA Konfrans Liqasında təmsilçilərimiz - "Sabah", "Neftçi" və "Qəbələ"nin də üçüncü təsnifat mərhələsinin potensial rəqiblərinin adlarına aydınlıq gəlib.

Belə ki, Türkiyənin "Beşiktaş" klubu Albaniyanın "Tirana" komandasını keçəcəyi təqdirdə "Jelezniçar" (Bosniya və Herseqovina) - "Neftçi" cütünün qalibi ilə üz-üzə gələcək.

2-ci təsnifat mərhələsində qələbə qazanacağı təqdirdə "Sabah" "Partizan"la (Serbiya), "Qəbələ" isə "Mitjylland" (Danimarka) - "Proqress" cütünün qalibi ilə oynayacaq.

"Sabah" və "Qəbələ" bu raundda ilk oyunlarını evdə, "Neftçi" isə səfərdə başlayacaq.

Konfrans Liqasında üçüncü təsnifat mərhələsinin oyunları avqustun 10-da və 17-də keçiriləcək.




## Azərbaycan atıcıları dünya çempionatında qızıl və bürünc medallar qazanıblar

Koreya Respublikasının Çanqon şəhərində Beynəlxalq Atıcılıq İdman Federasiyasının Gənclər arasında dünya çempionatında idmançılarımız böyük uğur qazanıblar.

Azərbaycan Atıcılıq Federasiyasından verilən məlumata əsasən, iyulun 24-də qızlar arasında 50 metr məsafəyə tapançadan atəş üzrə yarışda Xanna Əliyeva 520 xalla birinci, 510 xalla Leyli Əliyeva üçüncü yeri tutaraq eyni növdə həm qızıl, həm bürünc medalı ölkəmizin aktivinə yazdırıblar.

Dünya çempionatı iyulun 25-də başa çatacaq.

## Fərrux Mahmudov "Neftçi" PFK-nın prezidenti təyin edilib



Fərrux Mahmudov "Neftçi" Peşəkar Futbol Klubunun (PFK) prezidenti (baş icraçı direktoru) təyin edilib. Bu barədə klubun saytı xəbər verir.

Bildirilir ki, 1982-ci ildə anadan olan Fərrux Mahmudov 1999-2003-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində mühasibat uçotu və audit ixtisası üzrə bakalavr, 2003-2005-ci illərdə isə Mərkəzi Avropa Universitetinin Biznes Məktəbində biznesin idarə olunması və marketinq üzrə magistr təhsili alıb.

F.Mahmudov 2022-ci ildən Azərbaycan Basketbol Federasiyasının icraçı direktorudur. O, həmçinin 2015-ci ildən "ALTÜST Media" MMC-nin təsisçisi və idarəedici direktoru olmuşdur. Müxtəlif illərdə "Samsung Electronics Caucasus", "British American Tobacco Azerbaijan", "Azerfon" MMC və digər şirkətlərdə rəhbər vəzifələrdə çalışıb.

## Fransız üzgüçü Leon Marşan dünya rekordunu yeniləyib



Fransalı idmançı Leon Marşan Yaponiyada keçirilən su idman növləri üzrə dünya çempionatında 400 metr məsafəyə kompleks üzgüçülükdə yeni dünya rekordu vurub.

Final yarışında fransalı 4 dəqiqə 2,5 saniyə nəticə göstərib.

Beləliklə, 21 yaşlı idmançı 23 qat olimpiya çempionu amerikalı Maykl Felpsin 2008-ci ildə Pekində keçirilən olimpiadada təyin etdiyi rekordu (4:03,84) yeniləyib.

Leon Marşan üçüncü dəfə dünya çempionu olub.

*Hazırladı: Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## OXUCULARIN NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" qəzetinə *abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

<u>*Təkrar*</u>

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ümumtəhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir);*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 15.08.2023-cü il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 23.08.2023-cü il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 24.08.2023-cü il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2021-ci il tarixli 2449 nömrəli Sərəncamına əsasən Tural İnqilab oğlu Əskərovun adına Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Zabrat-Pirşağı yolunun 3-cü kilometrliyi, Yeni Yaşayış kompleksindən fərdi yaşayış evinə verilmiş müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.

## BİLDİRİŞ

"Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyətinin Baş ofisi 24 iyul 2023-cü il tarixdən etibarən öz fəaliyyətini Bakı şəhəri, Nərimanov rayonu, akademik Həsən Əliyev küçəsi, 24 ünvanında davam etdirir.

***"Xalq Sığorta" ASC***

## BİLDİRİŞ

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən "Yeni Klinika" tibb müəssisəsində istifadə üçün nəzərdə tutulmuş tibbi sərfiyyat və tibbi ləvazimat mallarının satın alınması məqsədilə açıq tender metodu tətbiq edilməklə keçirilmiş satınalma prosedurunun qalibləri "Arash Medical Company" Qapalı Səhmdar Cəmiyyəti, "Medeks" Məhdud Məsuliyyətli Cəmiyyəti , Paşa K Firması, "Terra Pharm" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Azəri Med" Qapalı Səhmdar Cəmiyyəti, "Zeytun Pharmaceuticals" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir. "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə "Arash Medical Company" QSC, "Medeks" MMC, Paşa K Firması, "Terra Pharm" MMC, "Azəri Med" QSC, "Zeytun Pharmaceuticals" MMC arasında 12.07.2023-cü il tarixdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Azərbaycan-Özbəkistan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri və Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin sədri Eldar İbrahimov qrupun və cəmiyyətin üzvləri adından Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Baxrom Aşrafxanova

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhəri Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalova əzizi

**ZAHİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun kollektivi Ağsu rayon prokurorunun böyük köməkçisi Vasif Əhmədova atası

**MAARİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5196
Sifariş 1844

Qiyməti 40 qəpik